Sevindik Nəsiboğlu



# Zəfəri nurlandıran NURLAN

Sevindik Nəsiboğlu

# Zəfəri nurlandıran NURLAN

9A-F

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 125382

BAKI-2023

63.3(5Aze)622,8+84(5Aze)
N 59

**Redaktor:** Əli Rza Xələfli, şair, yazıçı-publisist

Sevindik Nəsiboğlu. **Zəfəri nurlandıran Nurlan.** "Bakı Mətbəəsi" ASC. Bakı-2023. 140 səh.

*Bədii-publisistik üslubda qələmə alınmış "Zəfəri nurlandıran Nurlan" adlı bu kitab məktəbli, şair-publisist, yeniyetmə yazar Sevindik Nəsiboğlunun oxucuları ilə sayca 6-cı görüşüdür. Bu kitabda Azərbaycanımızın, Türk dünyamızın mədəniyyət mərkəzi, adı qəhrəmanlıq dastanlarımızın, hekayələrimizin, poemalarımızın, şeirlərimizin əsas başlığına çevrilmiş doğma Qarabağımızın baş tacı olan Şuşada Topxana meşəsindən bədxah düşmənlərimiz tərəfindən atılan top mərmilərinin qorxunc səsləri altında dünyaya göz açmış, hələ altı aylıq qundaqda olarkən doğulduğu müqəddəs məkanda ayaq açıb yerimədən, ana qucağında məcburən doğma yurdunu tərk etmiş, "Ana", "Vətən" deməyə başlayandan ta şəhadətinə, son sözünə qədər ürəyi vətənlə döyünən, müqəddəs vətən torpaqlarının düşmən tapdağından azad edilməsi yolunda canından çox sevdiyi vətəninə canını fəda edərək, qırmızı qanları ilə adlarını tariximizə qızıl hərflərlə həkk etdirərək dastanlaşmış vətən oğullarından biri – şəhid leytenant Həsənov Nurlan Nadir oğlunun məcburi köçkünlükdə keçirdiyi uşaqlıq, yeniyetməlik, orta məktəb, tələbəlik, əsgərlik və şanlı döyüş yolu, tarix baxımından qısa olsa da məna baxımından əbədiyaşar ömür yolundan bəhs edilmişdir. Müəllifin kitabda yer almış eyniadlı məqaləsi onun redaksiya heyətinin üzvü və ən gənc müxbiri olduğu "Kredo" qəzetində, "Afia.az" və digər xəbər saytlarında dərc edilmişdir.*

*Bu kitab Vətənini, millətini, torpağını, müzəffər ordusunu, Vətən fədailərini sevən hər bir şəxs üçün nəzərdə tutulmuşdur.*

030
------------------- qrifli nəşr
31032023

İSBN 5 - 89968-221-3

© Sevindik Nəsiboğlu



*Vətən Müharibəsi şəhidi, leytenant*
*Nurlan Həsənov*

# ŞƏHİDLƏR UNUDULMUR

***Nurlanın şəhidlər haqqında inşası***

*Öz hünəri, doğma torpağa, el-obaya sonsuz məhəbbəti ilə əbədiyyətə qovuşan şəhidlərimiz bir an belə unudulmur. Onların xatirəsi daim əziz tutulur, böyük hörmətlə və ehtiramla yad edilir. Mənfur ermənilərin xalqımızı zorla cəlb etdikləri müharibədə qeyrətli oğullarımız müdafiəyə qalxmışdır. Sinəsini düşmən gülləsinə sipər edən bu igidlərimizə "Milli qəhrəman" adı verilir.*

*Müharibədə həlak olan şəhidlərin adlarının əbədiləşdirilməsi, onların ailə üzvlərinə təqaüd verilməsi və s. məsələlər də daim diqqət mərkəzindədir.*

*Şəhidlər xalqımızın qan yaddaşı, qeyrət yaddaşıdır. Hər dəfə onlardan söhbət açanda, vətənin igid və qəhrəman oğullarının rəşadətini xatırlayanda hədsiz dərəcədə kövrəklik hissi oyanır, qəhər insanı boğur. Axı bu qeyrətli oğullar Azərbaycanımızın müstəqilliyi, xalqımızın azadlığı uğrunda sinəsini düşmən gülləsinə sipər edərək vaxtsız köçüblər! Vətənin azadlığı, müstəqilliyi uğrunda ayağa qalxan vətənpərvər oğul və qızların amansızcasına güllələbaran edildiyi gün xalqımızın, tariximizin mərdlik, qəhrəmanlıq səhifəsi açıldı.*

***19 dekabr 2009-cu il***

## VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDİ, LEYTENANT NURLAN HƏSƏNOVUN QISA BİOQRAFİYASI

Nurlan Həsənov 19 may 1991-ci ildə Şuşa şəhərində anadan olmuşdur. 8 may 1992-ci ildə Şuşa şəhərinin erməni qəsbkarları tərəfindən işğal edilməsindən sonra Həsənovlar ailəsi Binəqədi rayonunda məskunlaşdılar. 1997-2008-ci illərdə Binəqədi rayonunda Şuşa şəhərinin 3 nömrəli tam orta məktəbində təhsil alıb. 2008-2012-ci illərdə isə Azərbaycan Texnologiya Universitetində (ATU) ali təhsil alıb. Ailəli idi. Bir qızı və bir oğlu yadigar qaldı.

Nurlan Həsənov 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin əvvəlcə Naxçıvan, sonra Gəncə şəhərində yerləşən «N» saylı hərbi hissəsində «leytenant» hərbi rütbəsində və motoatıcı taqım komandiri vəzifəsində xidmət edib. 2014-cü ildə öz istəyi ilə Azərbaycan Ordusunun sıralarından tərxis olunub.

Azərbaycan Ordusunun leytenantı olan Nurlan Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Xocavəndin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Nurlan Həsənov oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsində dəfn





olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurlan Həsənov ölümündən sonra «Vətən uğrunda» medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurlan Həsənov ölümündən sonra «Cəbrayılın azad olunmasına görə» medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurlan Həsənov ölümündən sonra «Xocavəndin azad olunmasına görə» medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Nurlan Həsənov ölümündən sonra «Füzulinin azad olunmasına görə» medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı

döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Nurlan Həsənov ölümündən sonra «Cəsur döyüşçü» medalı ilə təltif edildi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Nurlan Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin 05.11.2022-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif edilmişdir.





## ZƏFƏRİ NURLANDIRAN NURLAN

***Şəhid leytenant Nurlan Nadir oğlu Həsənovun əziz xatirəsinə həsr olunur (19 may 1991-ci il Şuşa şəhəri– 1 oktyabr 2020-ci il Füzuli rayonu).***




Həyatın qanunları dəyişdirilməz və qaçılmazdır. Bu qanunlar insanı insan edən bir süzgəcdir. Bunun başqa adı isə həyatın sınağıdır. Qanunun özü sınaqdır. İnsan anadan olaraq yaşamağa başladığı, ayaq açıb yeridiyi, ümumiyyətlə, nəfəs aldığı hər an bu sınaqların sərt üzü ilə rastlaşacaq və sınağın nəticəsi insan hərəkətini dayandı-

ran zaman açıqlanacaq. Əgər insan Allah dərgahında bu sınaqdan üzüağ keçdisə, nurlu cənnətə, keçmədisə, qan qırmızısı atəşli cəhənnəmə yollanmalı olacaq.

Çox insan bu sınaqdan keçdi, onlardan bəziləri üzüağ keçdi, digərləri isə keçmədi və ya keçə bilmədi... Onlar doğulanda çiy doğuldular, həyatın qanunları onlara şərait yaratdı ki, onlar qaynar, yandırıcı odda yansınlar, bişsinlər, həyatı qavrasınlar, öyrənsinlər. İnsan bu qanunlara əməl edəndə təkcə üzünün nuru ilə yox, yaxşı əməlləri ilə, insanlara bəslədiyi hörmətlə, sevgiylə, hətta həyatda olmasa, ölsə belə daim yaşayır. Yox, əgər sadalananları etməsə, bu qanunun digər adı olan sınaq onun qırtlağını yaşayan zaman cənginə alır və onu yaşayarkən əbədi ölü edir.

Həyatın qanunlarından biri də sevgidir. İnsanlar sevgini müxtəlif mənalarda başa düşürlər. Belə ki, bəzi insanlar üçün sevgi anaya, bəziləri üçün sevgi ömür-gün yoldaşına, bəziləri üçün ataya, qardaşa, bacıya, bəziləri üçün isə havaya, suya, göyə, yerə və s. yönəldilir. Bəzi insanların sevgisi torpağadır, vətənədir. Üstündə gəzib, altında uyuyacağı torpağa... O insanlar torpağına, Vətəninə, boya-başa çatdığı yerə, elə, obaya, oymağa sona qədər bağlı olur, onların bu sevgiləri tükənməzdir. Onda onların həyatı tamamilə torpaq, Vətən, yurd üzərində qurulur. Lazım gələndə bu insanlar həmin sevgiləri üçün canlarından, sevdiklərindən, işlərindən, yaşadıqları bu dünyada onlara əziz olan hər şeydən əl çəkərlər... Onlar "Təki torpaq, Vətən, yurd, el, oba sağ olsun! Təki üstündə gəzdiyim torpağın altında





rahat uyuya bilim..." deyərək sonuna qədər özlərini torpağına, Vətəninə, elinə, obasına, xalqına həsr edərlər. Həyat onları hər zaman sınayar, hətta üzərində ilk qədəm basdığı torpağını da əllərindən alar. Lakin o insanlar onlar üçün zəruri, əziz olan hər şeydən əl çəkər, inamından, sevgisindən əl çəkməz və sonu ölüm olsa belə uğrunda canlarını fəda etdikləri o torpağa çatarlar. Onda həyat qanunu sınağa çevrilər və sınağın sonu əbədi cənnət, əbədi həyat olar. Onlara bir ad verilər:Yer üzündə, işıqlı dünyada cənnəti təmsil edən, əməlləri və sevgiləri ilə cənnəti qazanan cənnət insanları...

Haqqında bəhs edəcəyim cənnət insanlarından biri olan Şəhidimiz də alınmaz qalamız olan Şuşamızda, Şuşamızın çətin bir zamanında, vahiməli tank-top səsləri altında bu dünyaya gəldi, sonda hər nə olursa olsun, düşmənə nifrətiylə, Vətənə sevgisiylə onu Şuşasından, ruhundan ayıran düşmənə qalib gəldi və azad Şuşa göylərində əbədi ömür sürməli oldu... Bu, cənnət insanı – şəhid leytenant Nurlan Həsənovdur!

Nurlan Nadir oğlu Həsənov 19 may 1991-ci ildə Azərbaycanımızın dilbər guşəsi olan Şuşa şəhərində Nadir atanın və Həqiqət ananın ailəsində dünyaya göz açdı. Ona, bu dünyanın cənnətində doğulan cənnət parçasına Nurlan adının verilməsi də heç təsadüfi deyildi. Məsum gözləri açılıb torpağı, yeri-göyü gördüyü andan sanki sözün əsl mənasında gözləri həqiqətə, haqqa, ədalətə, qəhrəmanlığa, vətənə sonsuz sevgiyə açıldı. Yenicə dünyaya gələn bu

körpə elə öz körpə hissiyatı ilə də Şuşasına, bu dünyanın cənnətinə aşiq oldu, bir könüldən min könülə vuruldu Şuşamıza, onun sərin, gözəl havasını doya-doya ciyərlərinə çəkdi. Bu anların davam etməsi üçün həyatın sınağı Həsənovlar ailəsinə 6 ay möhlət verdi. Lakin bu 6 aylıq möhlət özü də bir sınaq idi. Nurlan Vətənimizin ən çətin zamanında dünyaya göz açmışdı. Onda Vətənimizin dilbər guşəsi Qarabağın, cənnət Şuşanın başının üstünü yavaş-yavaş qara buludlar alırdı. Nurlangilin evləri də Topxana meşəsinin lap yaxınlığında idi. Oradan nə səfalı yerlər görünür, xoş rahiyəli dağ havası gəlirdi, nə də yaşıllıqlara qərq olmuş mənzərə görünürdü. Erməni vandalları Topxana meşəsini qırıb məhv edir, hər yeri top, tank atəşinə tutur, Şuşanı həm təmiz havasından, həm də sağlam ağciyərindən edirdi. Körpə Nurlan da bu günlərə heç alışa bilmədi. Doğulandan cəmi 6 ay Şuşada qaldı, bu 6 ayın bir günü də olsun rahatlıq tapa bilmədi o balaca, körpə Nurlan. Hər gün atəş səsləri, torpağın, havanın, suyun yalvarışı, sıldırım qayaların çəkdiyi qıy... Mənfur düşmənlə üz-üzə qaldığı hər gün, hər gecə Nurlan gülümsəyə bilmirdi. O, hey ağlayır, haray, qıy, bəlkə də nərə çəkirdi. Hamı əvvəllər bu ailəyə arzulamışdı ki, evlərindən uşaq səsi, körpə nəfəsi gəlsin. Amma bu gələn səs bir evin yox, bir şəhərin, bir elin, bir millətin, ulu bir xalqın ədalətsizliyə, zülmə, zalıma qarşı ahı, ağısı, üsyanı idi. Körpə Nurlanı heç kəs sakitləşdirə bilmirdi. O meşələrin arxasında məskən salan, onun tanıyıb eləmədiyi düşmən ona illərin ağrısını verəcəkdi.





Bu hələ harası idi?! Yaşanılmayan bir yerə çevrilən Şuşa və hər gün səngərlərdəki əsgərlər kimi ölüm-dirim savaşına çıxan Həsənovlar ailəsi... Bundan sonra tək yol qalırdı: döyüşlər bitənə qədər doğulub-böyüdükləri, çörəyini yeyib suyunu içdikləri, canları qədər əziz olan Vətən Şuşanı məcburən tərk etməli idi Həsənovlar ailəsi...

6 ay keçdi. 1991-ci ilin qızıl yox, bu yerlərin sakinləri üçün qara payızı gəldi. Həmin fəslin noyabr ayı Həsənovlar ailəsi çox çətin və gərgin bir prosesdən sonra Şuşanı tərk etmək qərarına gəldilər. Nurlan indi əvvəlkindən daha çox ağrıyırdı, qıy çəkirdi. Bu taleyə, bu qismətə, bu haqsızlığa qıy çəkirdi. Bundan sonrakı 29 il onu yandırıb kül edəcək həsrətə qıy çəkirdi. Onu Şuşasından edən düşmənə qıy çəkirdi. Dünyanın ədalətsiz dönəminə qıy çəkirdi. Qayalarla səs-səsə verib qıy çəkirdi balaca Nurlan... 1991-ci ilin noyabrı Şuşadan ayrılan Nurlanın uşaqlığı sanki elə o vaxt Şuşada qaldı... Neçə-neçə illər keçsə belə, elə bir noyabr gələcəkdi ki, vaxtilə Şuşadan ayrılan çarəsiz Şuşalılar sevinc və qürur hissi ilə Zəfər xəbərini alacaqdılar.

Həyat 6 aylıq möhlətdən, təlimdən sonra Nurlanı sınamağa başladı. 29 il ona Şuşasızlıq, Qarabağsızlıq sınağı verdi. Nurlan bir payız günü getdi Şuşadan. Zəfər sorağı ilə ora qayıdacağı bir payız günü üçün o, bu sınaqdan üzüağ keçməli idi. Keçəcəkdi də. Çünki o, cənnət insanı Nurlan idi...

Həqiqət ana və Həsənovlar ailəsi o günlərin ağrı-acıları ilə çox çətin barışırdılar. Onlar müxtəlif yerlərdə məskun-

laşdılar. Bir müddət Ağdamda yaşadılar, bir ara Bərdəyə, oradan Qızılqum sanatoriyasına köç etdilər... Amma özləri harada olursa-olsun, ruhları Şuşada qalmışdı onların. Bir yandan Qarabağsızlıq, Şuşasızlıq, Xankəndisizlik, bir yandan Vətəndə Vətən həsrəti ilə yaşamaq, bir yandan ana və xanım məsuliyyəti - bunların hamısı Həqiqət ananın çiyinlərində idi. Ancaq o, onlara meydan oxumağa çalışan qəm-kədərin, düşmənlərin acığına bunların hamısına mərdi-mərdanə sinə gərirdi, gərəcəkdi, gərməli idi də. Nurlan bu işdə ona sona qədər kömək edəcək, ürək-dirək verəcəkdi. Bir vaxt körpə olaraq, sonra uşaq olaraq, sonra da gənc, igid birisi olaraq edəcəkdi bunları Nurlan. Həqiqət ana Nurlanı, digər uşaqları və sevdikləri ilə bu sınaqdan üzüağ çıxacaqdı və dünyadakı ən şərəfli ünvanlardan birinə layiq olacaqdı Nurlan kimi...

Vətəndən köçüb Vətənin hər yerinə köçkün kimi köç edib gəzən, lakin doğma Qarabağsız, Şuşasız heç bir yerdə qərar tuta bilməyən Həsənovlar ailəsi sonda Binəqədi rayonunda məskunlaşmalı oldu. Nurlanın ağlı burada kəsdi, dili burada söz tutub "Ana", "Vətən", "Şuşa" dedi. Burada anladı ki, həsrət və ümid nə deməkdir. Nurlan Binəqədidə olarkən Şuşanı daha yaxından tanıdı. Əzəldən ruhu şəhidlərlə qoşa Şuşada qərar tutan Nurlan elə ağlı kəsib dili söz tutandan Şuşa həsrəti ilə qanadsız quş kimi çırpınıb dururdu. Həyatın qanunları hələ ki onu uzun bir müddət davam edəcək acıya məhkum etmişdi. Köksünü dağlayan alov çəmbərinin içərisində idi Nurlan. Allahdan gələn uca





nur ilə bu alov çəmbərindən çıxacağı günü gözləməyə başlamışdı O. Günlərlə, aylarla, illərlə həsrətdə qalanların ağılarını, kömək gözləyənlərin gileyini eşitməkdən qulaqları köz olub yanmağa başlayacaqdı. Hələ bu harası idi?! Qaçqınların, köçkünlərin, onları son damla qanına kimi qoruyub müdafiə edən əsgərlərin qan qoxuyan, qara yazılan bəxti, həyatı ən əvvəldə öz anası və atasının, ən sonda müəllimlərinin dilindən səslənəcəkdi. Nurlan belə bir həyatı yaşamağa məhkum edilmişdi. Amma nə qədər çətinliklərlə, keşməkeşlərlə, sınaqlarla dolu olan bir həyat yaşasa da o, bundan sona qədər məmnun olacaqdı. Hər dəfəsində belə bir həyat yaşadığına görə Allahına şükür edəcəkdi. Yazının əvvəlində qeyd etdiyim kimi, çünki o, Nurlan idi, səbir edəcəkdi, məqamı gözləyəcəkdi. Ən çox da səbirlə gözlədiyinə görə, O, Allahın ən əziz bəndələrindən birinə çevriləcəkdi, onsuz da elə idi. Allah isə ona ən şərəfli həyat və ən şərəfli sonluq nəsib edəcəkdi.

24 il bundan əvvəl isə Nurlan hələ 6 yaşında, hər şeyi yenicə anlamağa başlayan bir uşaq idi. 1997-ci ilin sentyabrının ilk gününü göstərirdi təqvimlər. Nurlan həmin il Binəqədi rayonunda məskunlaşıb fəaliyyətini davam etdirən Şuşa şəhər 3 saylı tam orta məktəbin birinci sinfinə qədəm qoyurdu. Bu məktəb yollarında yeriyən kiçik uşaq ayaqları bir gün cəsur əsgər kimi məktəbdən ayrılacaq, kitab tutan əllər silah tutacaqdı. Bu məktəbin sıralarında Nurlan özünüdərk prosesinin zirvəsindən keçəcək və 11 il sonra 2 mühüm qərardan birini verəcək, 2 yoldan

birini seçəcəkdi.



Nurlan ilk andan böyük istək və həvəslə məktəbdə oxumağa başladı və sona qədər də elə davam etdi. Hər dəfə valideynlərinə dərslərdə aldığı əla qiymətlərindən danışan Nurlan özü də buna çox sevinərdi. Valideynləri Nurlanın dediklərinin eynisini müəllimlərdən eşidəndə daha çox sevinər, qürurlanardılar. Ailəsi Nurlanla hələ o vaxtlardan fəxr edirdi. Amma bilməzdilər ki, hələ o vaxtlar ailəsinin başını uca etməyə başlayan Nurlan bir vaxt onlara necə şərəfli bir fəxri ad verəcəkdi. Şagird Nurlanın Şəhid Nurlan olmasına isə hələ illər var idi. O, get-gedə Şuşanı daha yaxından tanıdı, Qarabağ ürəyində məskən saldı. Azərbaycan tarixi dərsliyində hər dəfə Qarabağın, ata yurdu Şuşanın, ana yurdu Xankəndinin adını eşidəndə quştək havalanırdı, pərvazlanırdı. Hər dəfə dərslərindən ev tapşırığı yazanda isə birtəhər olurdu. Evi Şuşa olan Nurlan ev tapşırığını Şuşada yox, Binəqədidə həll edirdi.





Onun orta təhsil aldığı Şuşa məktəbi Binəqədidə məskunlaşmışdı. Ailəsi və sevdikləri orada, Şuşada yaşamalı ikən burada yaşayırdı. Nurlanın ev tapşırığının döyüş tapşırığına çevrilib onu Şuşaya aparmasına da illər lazım gəlirdi.

Nurlan həyat pilləkənlərini pillə-pillə aşırdı, indi onun önündə ev tapşırıqlarını üstələyən sınaq tapşırığı da var idi. O, bir sözdən ibarət idi: Səbir. Bu bir söz nə qədər çətin ola bilərmiş?. Amma eyni zamanda gör nə qədər şərəfə çevrilərmiş... Yuxarı siniflərdə valideynlərindən eşitdiyi sözləri Azərbaycan tarixi kitabından oxuyan Nurlan Xocalı soyqırımı, Qarabağın işğalı, o tərəf-bu tərəfə qaçan qaçqınlar, yandırılan evlər və məhv edilən meşələr, məhv edilən təbiət gözəllikləri barədə oxuyub-eşidəndə, televiziya ekranlarında bu edilənlər barədə filmlər izləyəndə "səbir" adlı 5 hərfli sözün çətin olduğunun fərqinə bir daha varırdı. Körpə uşaqları görəndə sanki başı qarışırdı. Sanki valideynlərindən eşitdiyini özü öz gözləri ilə görmüşdü. Gördüyü şəkillər, baxdığı video-kadrlar xatirələrini çeşidləndirirdi. Şuşanı ağ-qara lentlərdəki kimi xəyal edirdi. Nurlan "Ağlayan uşaqlar" adlı güzgüdə özünü görürdü.

Bu dəfə təqvim 2008-ci ilin isti yay gününü göstərirdi. O vaxt Nurlan 11-ci sinfi bitirib məktəbdən məzun oldu və son zəngdə cavan igid, gəncliyə cəsur, mətin addım atan bir məzun kimi şagirdlər paradında oldu. O, bu anlar özünü sanki hərbi paradda hiss edirdi.

Günlər və həftələr sonra isə Nurlanı ağır və çətin buraxılış imtahanları gözləyirdi. Demək olar ki, onun həyatı



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 125382

elə sınaqdan və imtahandan ibarət idi. Sınaq Nurlanı sıxmadı və başı dik, alnıaçıq, üzüağ bir şəkildə sınaqdan çıxdı. Nurlan növbəti sınağından da üzüağ çıxdı, imtahanlardan yüksək bal topladı və öz istəyi ilə Azərbaycan Texnologiya Universitetinə qəbul oldu. O, çox istəyirdi ki, əvvəlcə hərbi xidmətdə olsun, lakin belə fürsət gözləməz, gözlədərdi. Bu gözəl təhsil müəssisəsinə isə kənardan baxmaq yox, elə daxilində təhsil almaq lazım idi. İrəlidəki məqsədlərə nail olmaq üçün ali təhsil almaq şərt idi.

Heç bir qüsura, nöqsana yol vermədən çalışqanlığı, bacarığı və biliyi ilə bütün müəllimlərin diqqətini özünə cəlb etməklə o, 4 il bu təhsil ocağında ali təhsil aldı. Hər zaman olduğu kimi, bu dəfə də yanındakı tələbə yoldaşlarından fərqləndi və onlara örnək oldu. Bu illərdə hər şeydən çox hərbi xidmət, əsgər uniforması geyinmək və o geyimdə vətən torpaqlarının azadlıq mübarizəsinə qoşulmaq üçün çalışır, Qarabağın qisasını almağın həsrətini çəkirdi. Şuşasız keçən hər gün onun üçün məhbusluqla keçən min günə bərabər idi. Lakin bununla bərabər hər keçən gün onun inamı artırdı. Allah onu çətin günlərdən, çətin şəraitdən seçib çıxarmış və bu günlərə gətirmişdi. Onu bu günlərə gətirən Allah o günlərə – Şuşalı günlərə də aparacaqdı.

Nəhayət, 2012-ci ildə o, universiteti bitirdi və məzun adını qazandı. Bundan sonra o, rahatlıqla hərbi xidmətə yollana bilərdi. Beləliklə, Nurlan əsgər adını da qazanacaqdı, şərəflə Vətəninə müsəlləh əsgər kimi xidmət edəcəkdi. Bu adın bəxş etdiyi qürur və sevinc hissi əsgər ol-





mamışdan əvvəl də Nurlanda var idi. Odur ki, ailəsinin, dost-tanışlarının, qohum-əqrabanın xeyir-duası ilə Nurlan şanlı Azərbaycan Ordusunun sıralarında hərbi xidmət etməyə yollandı. Qohumundan eşitmişdi ki, vaxtilə ali təhsil alan əsgərlər Təlim-Tədris Mərkəzində zabitlik kursundan keçməklə leytenant hərbi rütbəsi ala və komandir vəzifəsinə yüksələ bilərlər. Bu xəbər Nurlanı sevindirdi. Ona görə də o, heç yubanmadan, vaxt itirmədən Təlim- Tədris Mərkəzində zabitlik kursuna yazıldı. Əslində onun elə ən çox arxasınca qaçdığı arzusu da bu idi. İllərlə Azərbaycan xalqının bağrından, dilindən qopan, Qarabağa ümid işığı olan, hamımızın sevdiyi bir mahnıda da deyildiyi kimi, "cənab leytenant"lardan biri də Nurlan olacaqdı. Sevərək dinlədiyi bu nəğmə bundan sonra onun timsalında səslənəcəkdi. O da zabit mundiri ilə, bir cüt ulduzlu-aylı paqonla vətənə, elə, xalqa, köməyə ehtiyacı olan hər kəsə, hamıya təsəlli olacaqdı.

Zabitlik kursunu bitirən Nurlan "leytenant" hərbi rütbəsini aldı və komandir vəzifəsinə yüksəldi. 2 il orduda zabit şərəfi ilə, leytenant poqonunu daşımağın verdiyi zəhm, məsuliyyət və fəxr hissi ilə hərbi xidmət etdi. Nurlan tabeçiliyində olan əsgərlər üçün əsl qardaşlıq nümunəsi, ailəsi üçün əsl Azərbaycan əsgəri nümunəsi idi. O, qüsursuz xidmətinə görə komandanlıq tərəfindən fəxri fərmanlar və təşəkkürnamələrlə təltif edilmişdi. Müdafiə Nazirliyi tərəfindən ona "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı verilmişdi. Nurlan hər günü-

nü zabit şərəfi ilə açdığına görə Uca Allahına şükürlər edirdi. Doğma Qarabağı, Şuşası üçün dualarını əskik etmirdi. İllərlə azadlıq müharibəsinin başlamasını gözləyə-gözləyə artıq gözlərinin kökü saralırdı. Onun amalı bu zabit geyimini müharibə şəraitində, ön cəbhədə, Şuşa dağlarının zirvəsində geyinmək idi. Silahının mərmilərindən yerlərə "Nurlan-Şuşa" yazısını həkk etmişdi. Hərbi xidməti zamanı və evdə olanda da sosial şəbəkələrdə paylaşımlar edirdi. İlahi hisslərlə inanırdı ki, Allah onu seçib və o bir gün Allah yolunda, Vətən yolunda qurban gedəcək. O, hərbi xidmət zamanı çəkdirdiyi foto-şəkillərini bir dəfə paylaşarkən şərh kimi bu sözləri yazmışdı: "Bir gün mən də olmayacağam..." Elə bil baş verəcəklər və nə vaxtsa cismən olmayacağı ona həmin vaxtlardan agah olmuşdu.

Nurlan 2014-cü ildə Azərbaycan Ordusu sıralarından ehtiyata buraxılsa da ümidini heç itirmədi. Bilirdi ki, o, Vətənə lazımdır. Nə vaxt lazım olsa, mütləq Vətən onu çağıracaq və Allahın izniylə Vətən uğrunda düşmən üzərinə var gücüylə şığıyacaq. Nurlan bundan əvvəl də, bundan sonra da ancaq Qarabağ üçün yaşamışdı və yaşayacaqdı. O, ağlı kəsdiyi andan canını Vətən yolunda qurban verməyə hazır idi, özünü bunun üçün hazırlamışdı. Nurlan valideynlərini, qurduğu ailəsini, dünyaya gələn körpə qızını və oğlunu, əzizlərini çox sevsə də Vətənini daha üstün tuturdu. Damarından saf Azərbaycan qanı axan Nurlan, həqiqətən, əsl Vətən fədaisi idi. Vətənin dar gündə olduğunu bilən kimi cavan ömründən, həyatından, yarımçıq qalacaq plan və arzularından





bir anda, heç düşünməyərək xətt çəkə bilərdi və çəkdi də.

Təqvimlər 2020-ci ilin iyul ayının 14-nü göstərirdi. Nurlan Tovuz istiqamətində şiddətli döyüşlərin getdiyini və bir gündə içərisində general-mayor Polad Həşimovun da olduğu 8 hərbçimizin Şəhadətə ucaldığını bilən kimi elə bil qan beyninə sıçradı. Gözləməklə keçirib hədər etdiyini sandığı bu 30 ildən sonra ilk dəfə idi ki, belə çox əsəbləşirdi. Mənfur düşmənlərin xarici ölkələrdə soydaşlarımıza etdiyi zülmü göstərən video-kadrlara baxdıqca əsəbləri tarıma çəkilirdi, qisas alovu onun gözünü qan çanağına döndərirdi. Fikri isə dönmür və dəyişməz qalırdı. O, hiss edirdi ki, artıq vaxtdır və mübariz Azərbaycan ordusu gec-tez hərəkətə keçməlidir. Bu zaman onun Azərbaycanın hayına hay verən bir cənab leytenant olduğu gözünün önünə gəlirdi. Xəbər də almışdı ki, zabitlər və mülki şəxslər hərbi şöbədə könüllü olaraq orduya yazıla bilərlər. Artıq bundan sonra onu heç bir kimsə saxlamağa qa-



dir deyildi qadir olan Allahdan başqa. Allah isə ona Füzuliyə qədər taybatay qapılar açmışdı, açacaqdı...

Nurlan tez bir zamanda hərbi şöbədə qeydiyyatdan keçdi və bundan sonra mübarizə üçün çağırılacağı anı artıq səbirsizliklə gözləməyə başladı. O, hər keçən gün, saat, dəqiqə səbirsizlənirdi, səbirsizliklə Şuşa yolunda açılmağı gözləyən qapıları açmaq istəyirdi, bunun üçün səbirsizlənirdi.

21 sentyabr 2020-ci ildə hərbçimiz Elşən Məmmədov Tovuz ətrafında gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olarkən qisas eşqiylə odlanan Azərbaycanın mərd oğullarına Ana Vətəndən çağırış gəldi. Bu çağırışa hay verən minlərlə vətən oğullarının sırasında Nurlan da var idi. O, hərbi təlimdə olarkən leytenant hərbi formasında bir şəklini çəkdirmiş və sevə-sevə tanışlara, qohum-əqrabaya göstərmişdi. İndi o, illər sonra bir daha geydiyi hərbi zabit uniforması ilə daha çox qürur duyurdu. Çünki bu forma ilə o, artıq doğma Qarabağa və onu azad etməyə gedirdi.



2020-ci ilin 27 sentyabr günü Ali Baş Ko-





mandan şanlı Azərbaycan Ordusuna Azərbaycan torpaqlarını, Qarabağı işğaldan azad etmək, yadların murdar əllərindən, düşmənin tapdağından qurtarmaq əmrini verdi. Həmin zaman ilklərdən biri olaraq Nurlan da şir kimi döyüşə atıldı. Döyüşdə düşmənin atəşinə qəhrəmanlıqla qarşılıq verirdi. Qarşısına çıxan və çıxacaq hər düşmənə zavallı gözü ilə baxır və ona acıyırdı. Çünki indi ölüm və məğlubiyyət növbəsi düşmənlərdə idi. Onlar bu dəfə illərlə qisas eşqi ilə yanmış, amalından dönməmiş Azərbaycan Ordusu ilə qarşı-qarşıya gəlirdilər. İndi bu ordu illərin, yüzillərin qisasını alacaq olan bir ordu idi. Bu ordunu olduqca gücləndirən, yenilməz edən bir amal var idi – Ana Vətən və onun qurtuluşu. Ordu sıralarında olanlar bu yolda canlarından keçməyə hazır olduqları üçün heç nə onları qorxutmağa, fikrindən yayındırmağa, yolunda ləngitməyə qadir deyildi. Eynən Nurlan kimi...



Nurlan üçün bu döyüşlər elə bil toy-bayram idi. Şuşanın işğalına "dağlarda toy" deyən qaniçən düşmənlər indi bilmişdilər ki, əsl toy necə olurmuş. Döyüş türkün

toyu idi, bu toy Qarabağın toyu idi. Düşmən kəndlərə, şəhərlərə raketlərlə zərbə endirməklə, mülki vətəndaşlarımızı, qadınları, qocaları, körpə uşaqları şəhid etməklə bu toy mağarını dağıda bilməz, xalqın qisas, azadlıq, qələbə əzmini qıra bilməzdi. Artıq başqa zaman, başqa məqam idi. Onlar bilirdilər ki, ölümdən çıxış yolu yox, qorxunun əcələ faydası yox idi! Nurlanın və Qarabağı nurlandıranların qəzəbi onlar üçün faciəvi bir sonluq idi.

Cəbrayıldan keçib Füzulini aşan, Xocavənd meşələrində düşmən ovuna çıxan Nurlan heç bir düşməni bağışlaya bilməzdi. Çünki bu mənfurlar ona sadəcə gözləməkdən ibarət olan məşəqqətli 30 il vermişdilər. Nurlan ermənilərdən onlar tərəfindən xalqımızın başına gətirilən faciələrin və son zamanlarda onun ömründən keçmiş 30 ilin haqq-hesabını çəkirdi. Onlar Nurlandan 30 ili almışdılar, Nurlan isə onlardan layiq olmadıqları halda Şuşa havası, suyu ilə bəslədikləri canlarını alırdı. Bu ab-havada yaşadığı hər gün onun üçün əzablardan qurtuluş günü idi.



Gündən-günə





igidliyi, mərdliyi, qəhrəmanlığı döyüş yoldaşlarının dilindən düşməyən Nurlan ailəsi ilə sıx-sıx əlaqə saxlayır, hər dəfəsində bildirirdi ki, hər şey yaxşı olacaq. Ailə üzvlərindən xahiş edirdi ki, ondan nigaran olmasınlar. Onun hər sözündən qələbə ətri hiss etmək olurdu. Hamı ona ümid bəsləyir və Nurlana deyirdi: "Alsan sən alarsan Şuşanı, al, bizə qaytar". O isə cavabında belə deyirdi: "Narahat olmayın, İnşəAllah, Ulu Yaradanın izni və köməyi ilə Şuşanı qaytaracağam..."

Çox təəssüf ki, 1 oktyabr 2020-ci il tarixində – müharibənin 5-ci günündə Nurlanın polad bədəninə dəyən namərd gülləsi onun bütün arzularına son qoydu və onun üçün Şuşaya qovuşan yollar Füzulidə ayrıldı. Ona Şuşanı ruhu ilə fəth etmək və fatehlərə ruhu ilə dəstək vermək nəsib oldu.

Ailəsi, sevdikləri və bütün Binəqədi camaatı Nurlanı Biləcəri qəsəbəsində dəfn etdi. Nurlansevər, Vətən sevdalısı, Qarabağ aşiqi olan əhali Həqiqət ananın, Nadir atanın dərdinə şəriklik etdi. Onlara ümid işığı verdi. Beləcə onlar Nurlanı dəfn etsələr belə əsgərlərimizə olan ümidlərini Nurlanla yanaşı dəfn etmədilər. Bildilər ki, cənab leytenant yenə hay verir. Bu dəfə ruhu ilə əsgərlərimizə hay verir və deyir ki, qardaşlar, mənim qisasımı alın, Şuşanı azad, mənim arzularımı çin edin!

Əsgərlərimiz isə heç gecikdirməyərək bu səsə səs verdilər. İlk olaraq Nurlanın ayaq izinin, bitməyən qanının izinin qaldığı Cəbrayılı, Füzulini və Xocavəndi azad etdilər.

Onlar Nurlanın qanını yerdə qoymadılar, qisasını aldılar. Sonra Şuşaya aparan bütün yolları açaraq 8 noyabr 2020-ci ildə Parlaq Qələbəni qazandılar. Şuşanı azad etdilər, üçrəngli bayrağımızı orada — Nurlanın amalına, qəlbinə, hissinə-həyəcanına və özünə çevrilən Şuşada dalğalandırdılar. 29 il əvvəl bir payız günü Nurlanın tərk etməyə məcbur olduğu Şuşa 29 il sonra yenə bir payız günü öz doğmasına, Azərbaycanına qovuşdu. Bu gözəl bayram günü Binəqədi əhalisi Nurlanın evinin həyətinə toplaşaraq izdihamla Həqiqət anaya və Nadir ataya gözaydınlığı verirdi. Onlar bir yerdə "Başını dik tut, Şəhid anası!", "Oğlunun qanı yerdə qalmadı!" şüarları ilə Nurlanın qisasının alınmasını qeyd etdilər.

Şəhid Nurlan Nadir oğlu Həsənov Şəhadətindən sonra Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

Cənnət adamı, Müqəddəs Zəfərimizin və Şuşanın azadlığının nişanəsi olan, Zəfəri adıyla və qəhrəmanlığıyla nurlandıran Şəhid Nurlan Həsənovun əziz xatirəsinə həsr etdiyim "Şuşanı ruhuyla fəth edən Nurlan" adlı şeirimi oxuculara təqdim edərək bu yazımı burada bitirir və Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm:





## ŞUŞANI RUHUYLA FƏTH EDƏN NURLAN

Şuşada doğuldu, içdi suyundan,
6 aylığında köçdü Şuşadan,
Doymamışdı Şuşanın qoxusundan,
Körpə ikən bezmişdi qaçqınlıqdan.

Həyatını Şuşa üçün yaşayan,
Şuşanı ruhuyla fəth edən Nurlan.

Savadıyla ali məktəb bitirdi,
Zabit oldu, Vətənə xidmət etdi,
Həyatında bir çox arzuya yetdi,
Sonda, canın vətənçün fəda etdi.

30-u görmədən köçdü dünyadan,
Şuşanı ruhuyla fəth edən Nurlan.

Nəinki o, Cənnəti fəth etmişdi,
O, Cənnətdən bu dünyaya gəlmişdi.
Bu dünya onunçün bir sınaq idi,
O, sınaqdan qəhrəmanlıqla keçdi.

Şəhid oldu, keçdi öz sınağından,
Şuşanı ruhuyla fəth edən Nurlan.

Döyüşə toy-bayrammış kimi getdi,
Cəbrayıl-Xocavəndi azad etdi,
Hər sözündə "Vətən sağ olsun" dedi,
Hər zəngində yenə təsəlli verdi.

Dedi: "Yaxşıyam, qalmayın nigaran",
Şuşanı ruhuyla fəth edən Nurlan.

Çoxlarını yandırdı Şəhadəti,
Həm yandırdı, həm də bir qürur verdi,
Bizlərə Zəfəri hədiyyə etdi,
Çox heyif ki, həyatdan vaxtsız getdi.

Zəfər kimi miras qalmışdır ondan,
Şuşanı ruhuyla fəth edən Nurlan.

Bir qızı, bir oğlu ondan yadigar,
Gözümüz kimi dəyərlidir onlar,
Zəfərlə təsəllini tapacaqlar,
Şəhid atayla qürur duyacaqlar.

Onlar doymadılar atalarından,
Şuşanı ruhuyla fəth edən Nurlan.

Şəhidim, ruhunla döndün Şuşana,
Göstərdin gücünü cümlə-cahana,





Ömür boyu ruhuna duaçıyıq,
Borcluyuq biz Səninτək qəhrəmana.

Qürur duyur səninlə Azərbaycan,
Şuşanı ruhuyla fəth edən Nurlan.

**Sevindik Nəsiboğlu**
***8-ci sinif şagirdi, şair-publisist, AJB üzvü***
***15.05.2022***

**P.S.** *Məqalə çapa gedəndən sonra şəhid Həsənov Nurlan Nadir oğlu Azərbaycan Respublikası Prezidentinin 05.11.2022-ci il tarixli Sərəncamı ilə (ölümündən sonra) "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.*

## ANA, SALAMAT QAL!



Həmişə Nurlanın daxilində vətənpərvərlik hissi, vətənə, xalqa sevgi, düşmənə qarşı qisas hissi olub. Nurlan körpə uşaq idi, bir gecə Şuşaya ermənilər mərmi yağdırarkən səhərə kimi Nurlan da qucağımda yaşadığımız binanın blokunda duraraq səhəri orada açdım. Mərmilər partlayanda Nurlan bu səsə çox bərk ağlayırdı. Fikirləşirəm ki, bəlkə də Nurlanda vətənpərvərlik, düşmənə sonsuz nifrət hissi elə onun narahatlığına, fasiləsiz ağlamasına səbəb olmuş düşmən mərmilərinin partlaması səsini eşitdiyi həmin körpə vaxtından yaranmışdı. Körpə Nurlan gözlərini bu dünyaya açandan topun, tankın səsinə yuxudan oyanmış, haqsızlığa, ədalətsizliyə üsyan edirmiş kimi körpə səsi ilə ağlamış, sakitlik tapmamışdı. Biz Şuşanı onun bu ağlamaq sədaları altında, ürəyimizin sızıltısı ilə tərk etmişdik...

Nurlanın 6 aylığında biz Şuşadan, doğma yurd-yuvamızdan, ocağımızdan çıxmağa məcbur olduq. Çünki elə bir vəziyyət yaranmışdı ki, uşaqların, qadınların, qocaların orada qalması mümkün deyildi. Erməni quldurları sutkanın bütün vaxtlarında Topxana meşəsi tərəfdən tanklardan, toplardan, iri çaplı silahlardan şəhəri fasiləsiz olaraq atəşə tuturdular. Bizim yaşadığımız bina isə Topxana meşəsi ilə üzbəüz idi. Ona görə də mən Nurlanı da götürüb məcburən Ağdam şəhərinə gəlməli oldum. Ancaq körpə uşağı olmayan qohum-əqrabalarımız Şuşada qalmışdı. Mən Nurlanı Ağdama gətirdim, bir müddət Ağdamda, sonra isə Bərdə şəhərində qaldıq. Şuşa şəhəri erməni cəlladları tərəfindən işğal edildikdən sonra Bakı şəhərinə köçdük və Qızılqum sanatoriyasında məskunlaşdıq. Bununla da məşəqqətli günlərimiz, məcburi köçkün, qaçqın həyatımız başlamış oldu. Həmin vaxtlardan atası da, mən də var gücümüzlə çalışırdıq ki, məcburi köçkünlüyü, bu çətinliyi Nurlana hiss etdirməyək, onu yaxşı böyüdək.

Vaxt keçir, Nurlan böyüyür, böyüdükcə saf, təmiz uşaq qəlbindən gələn cavabsız, lakin düşündürücü suallarının sayı da yaşı kimi artmaqda davam edirdi. Nəhayət, Nurlan böyüyüb orta məktəbin birinci sinfinə getmək yaşına çatdı və o, 284 nömrəli məktəbin birinci sinfinə daxil oldu. Məktəbdə birinci sinifdən başlayaraq əla qiymətlərlə oxudu və sona kimi də əlaçı olaraq orta təhsilini başa vurdu. Nurlan orta məktəb müəllimlərinin ən sevimli şagirdi, onların ən çox ümidlərini doğruldacaq şagird olmuşdu. Elə doğrudan da müəllimlərinin ümidini doğrultdu və sevdiyi ixtisas üzrə ali təhsil almaq üçün imtahanları müvəffəqiy-




yətlə verib tələbə adını qazandı. O, 2008-ci ildə Azərbaycan Texnologiya Universitetinin «Gömrük ekspertizası» ixtisası fakültəsinin 1-ci kursuna daxil olmuş, oranı da müvəffəqiyyətlə, tələbə-müəllim heyətinin yüksək hörmət və rəğbəti ilə başa vurub hərbi xidmətə yollanmışdır. Ali təhsilli olduğu üçün o, bir il xidmət etməli idi. Lakin deyəsən, belə etməyəcəkdi... Çünki uşaqlıq, yeniyetməlik dövründən hərb sənətinə meyillənmişdi. Beləliklə də onun ömrünün çox sevdiyi hərbi xidmət mərhələsi başladı. Bir dəfə Nurlan hərbi hissədən zəng edib dedi ki, ay ana, mən burada hərbi kurs keçib hərbçi zabit ola bilərəm. Dedim, necə istəyirsən, ürəyində nə arzulayırsan, elə də et. O, hərbi xidmətini Naxçıvandakı hərbi hissələrdən birində edirdi. Ona görə də zabit kursu keçmək üçün Naxçıvandan Bakıya







gəldi və imtahan verməli oldu. Zabitlik kursuna daxil olmaq üçün imtahan verəndə mənə zəng vurub zarafatla məni aldadaraq dedi ki, ana, imtahandan keçə bilmədim. Dedim, yox, oğul, ola bilməz, sən həmişə başqalarından fərqli olmusan. Sən imtahandan keçməmiş olmazsan, imtahandan keçməsən, belə rahat danışmazsan. Sonra gülüb dedi ki, ana, səni yoxlayırdım, zarafat edirdim, imtahanlardan müvəffəqiyyətlə keçmişəm. Artıq sənin oğlun hərbçi zabitdir, sən zabit anasısan. Mən Nurlanın bu xəbərindən çox sevindim və hətta qurban da kəsdim ki, Nurlanım zabit olub. O, hərbi xidməti zabit kimi başa vurdu. Deyirdi, nə qədər ki doğma torpaqlarımız, Qarabağımız, Şuşamız düşmən tapdağındadır, biz hamımız hərb sənətini öyrənməli, düşmənimizə yaxşıca dərs verməliyik. O, xidmətini başa vurub tərxis olunsa da hər an torpaqlarımızın azad olunması üçün cənab Ali Baş Komandanımızın verəcəyi müharibə əmrini gözləyirdi.

Nəhayət, Nurlan sevdiyi xanımla ailə həyatı qurdu. Onun bir qız, bir oğlan övladı dünyaya gəldi. İndi qızı Nurgülün 6, oğlu Məhəmmədin isə 2 yaşı olacaq. O, uşaqlarını çox sevirdi. Hər dəfə işdən evə gələndə bu, onun adəti idi ki, pilləkənlə qalxanda əllərini açıb uşaqlarını yanına çağırar, qucaqlayıb bağrına basardı. Hər səhər işə getməzdən əvvəl uşaqlarını yuxudan oyadar, üzündən öpər, onları qoxlayar, sonra qapıdan çıxardı.

Hərbi xidmətdən sonra Bakı şəhərində Poladəritmə zavodunda işə qəbul olunmuşdu. İşi də yaxşı idi, işindən razılıq edirdi, iş yoldaşları, kollektivi də onun xətrini çox istəyirdi. Lakin bununla belə həmişə elə deyirdi ki, ay ana, mən ya orduya qayıdıb xidmətimi davam etdirmək, ya da hərbi polis olmaq istəyirəm, axı torpaqlarımızla bağlı mənim ürəyimdə arzularım var, mən istəyirəm ki, o arzularım həyata keçənə kimi hərbi xidmətimi davam etdirim. Hər dəfə mən ona təskinlik verib deyirdim ki, narahat olma, dövlət başçımız işğalda olan torpaqlarımızı sülh yolu ilə qaytarmaq üçün çalışır. Torpaqlarımız düşmənlərimizdən azad edilsə hərbi xidməti davam etdirməyinə ehtiyac qalmır. Həm də ay oğul, sən indi ailəlisən, övladların var, əvvəlki kimi tək özün deyilsən axı... Onu belə sakitləşdirirdim. Son bir ildə isə darıxaraq elə hey deyirdi ki, ana, artıq mənim 29 yaşım var, bir az da vaxt keçsə, mən orduya qayıda bilməyəcəyəm. Arzularım ürəyimdə qalacaq. Mən isə ona təskinlik verməkdə davam edirdim. Yay vaxtı uşaqlarını aparıb rayonda qoymuşdu. Dedim ki, ay Nurlan, gərək gedib uşaqları gətirəydin. Çünki hər gün Nurgül





deyirdi ki, ay ata, gəl bizi apar. Mənim dediyimə görə elə bugün-sabah gedib uşaqlarını rayondan Bakıya gətirməli idi. Nurlana dedim ki, oğul, Nurgülü 1-ci sinif üçün qeydiyyatdan keçirmək lazımdır. Axı bu il məktəbə getməlidir. Məhəmmədin şəxsiyyət vəsiqəsini də almamısan. Dedi ki, ana, onlar düzələn şeylərdir, narahat olma. Onu da deyim ki, 2020-ci ilin iyul ayında erməni azğınlarının Tovuz rayonu istiqamətindən sərhədlərimizdə təxribat törətməsi, əsgər və zabitlərimizin, general Polad Həşimovun şəhid olmasından sonra Nurlan çox qəhərlənmişdi, demək olar ki, halı özündə deyildi, elə hey deyirdi ki, bircə Ali Baş Komandanımız əmr versə, səfərbərlik olsa idi, gedib o azğınlaşmış erməni dığalarının dərsini verərdik. Beləcə günlər keçirdi.

Bir gün Nurlan mənə dedi ki, əgər mən gec gəlsəm, tapşırmışam, uşaqları Bakıya gətirəcəklər. Özü isə könüllü olaraq hərbi çağırış üçün qeydiyyatdan keçməyə getmişdi. O, hərbi komissarlıqdan çox sevincək qayıtmışdı, elə bil ki dünyaları ona bağışlamışdılar. Dedi ki, ana, nəhayət, uzun müddət gözlədiyimiz an gəlib yetişdi. Şükürlər olsun ki, arzumuzu yerinə yetirib düşmənlərdən qisas alıb əzəli torpaqlarımızı işğaldan azad etmək üçün bizə fürsət yaranıb. Mənim narahat olduğumu görüb, əmin etmək üçün dedi ki, düşmənlərimizə layiq olduqları dərsi verib, torpaqlarımızı azad edib sağ-salamat evimizə qayıdacağıq, inşəAllah. Mən onun dediklərindən bir az təskinlik tapdım. Nurlan Vətən müharibəsinə yola düşməzdən əvvəl evə gəldi. O, elə həvəslə evə girdi ki, necə həvəslə evə gir-

diyini kaş görəydiniz. İnanın ki, o heç vaxt toylara, bayram şənliklərinə elə bir həvəslə, sevinclə getməmişdi. Deyirdi ki, əşi toydur də, gedib bir neçə saat oturub, iştirak edib gələrik. Ancaq indi isə... O, evə daxil olub lazımi sənədlərini götürdü. Öz avtomaşınının açarını da pilləkənin aşağısında mənə verdi. «Ana, salamat qal» – deyib, tələsik, demək olar ki, yüyürə-yüyürə yola düşdü, bir anda gözdən itib getdi. Nurlan artıq vətənin müdafiəsi və arzusunu həyata keçirmək üçün getmişdi. Müharibədə olanda bizimlə telefonla zəng edərək və mesajlaşaraq hal-əhval tuturdu.

İşdə olanda mənə zəng vurdular. Zəng edən dedi ki, Nurlan yaralanıb, evə gətirəcəklər, ona görə də evə gəl. Dedim, necə yəni? Yaralını evə gətirmirlər axı, xəstəxanaya, hospitala aparırlar. Onu evə niyə gətirirlər? Ona görə də şübhələndim. Evə gələndə gördüm ki, ilahi, elə bil yerlə göyün arası tutulub, yer-göy birləşib. Bütün insanlar toplaşıb bizim həyətimizə. Mən heç vaxt düşünməzdim, ağlıma belə gətirməzdim və inanmazdım ki, belə bir hadisə baş verər, Nurlanım şəhid olar. Amma oldu, Nurlanım canından, övladlarından, bizdən çox sevdiyi vətəninin azadlığı və öz arzusu yolunda şəhid oldu. Bizə şəhid adını və iki övladını əmanət edib şəhid döyüş yoldaşlarının uyuduğu cənnətinə getdi...

İndi onun Nurgülünün suallarına cavab vermək bizim üçün çox çətindir. Çünki Nurlanın özünün uşaqlığı kimi Nurgül də ağıllı və qeyri-adi bir uşaqdır. Birdən mən Nurlanı xatırlayıb ağlayanda deyir ki, nənə, ağlama. Atam göylərdən bizə baxır, ağladığını görüb pis olar. Birdən də deyir





ki, nənə, mən sənin üçün ikinci Nurlanam, ay nənə, mənə ikinci Nurlanına bax, ağlama.

Sağlığında hərdən söhbət düşəndə deyirdim ki, Nurlan, oğlum, elə dost deyib durmusan. Amma indi həqiqi dost azdır. Mənimlə razılaşmırdı. Deyirdi ki, ana, dost elə dostdu. İndi görürəm ki, o vaxt Nurlan düz deyirmiş. Nurlanın dostları elə həqiqi dostlar imiş. Çox sağ olsunlar Nurlanın dostları. Onlar Nurlanın sağlığında necə idilərsə, indi də elədirlər. Nurgüllə Məhəmmədin ad günündə, bayramlarda, Nurlanın doğum və anım günlərində bizi tək buraxmırlar. İndi deyirəm ki, anan qurban, ay Nurlan, sən, həqiqətən də dostlarınla fəxr etməkdə düz edirmişsən. O, həmişə deyirdi ki, ana, mənim dostlarım yaxşı, sədaqətli, həqiqi dostlardır. Deyirəm ki, Nurlan, kaş sağ olaydın, dostlarının sadiqliyini, bu günləri görəydin. Nurlanın şəhid olduğundan sonra keçən hər gün deyirəm bu sözləri. Bir də deyirəm ki, kaş Nurlan sağ olaydı, gedib işğaldan azad olunan torpaqlarımızı, 6 aylığında məcburən tərk etdiyi Şuşamızı öz gözləri ilə görəydi, ziyarət edəydi.

2020-ci ilin noyabr ayının 8-də Nurgül dedi ki, ata, gözün aydın, ruhun şad olsun, Şuşamız işğaldan azad olunub. O, elə deyirdi ki bu xəbəri, elə bil elə atası ilə üzbəüz dayanıb söhbət edirdi. Onda bildim ki, Nurlanın ruhu şaddır və indi onun ruhu işğaldan azad edilmiş torpaqlarımızın səmalarındadır. Şəhid anası olmaq nə qədər çətindirsə, bir o qədər də qürurludur. Oğulu vətənin müdafiəsi üçün dünyaya gətirib böyüdürük. Şəhidlik ən ali mərtəbədir. Bu gün

Nurlan həmin ali mərtəbədə şəhid döyüş yoldaşlarının yanındadır. Allah vətənimizi qorusun, təki Vətən sağ olsun!

Ayrılıq dərdinə dözə bilmirəm,
Gözlərim yollara dikilib baxır.
Birdən Nurlanım gələr,
Sevinər dostların, bütün el-oba,
Sevinər Nurgülün, Məhəmmədin də.
Xoşbəxtlik donunu geyinərəm mən,
Ayrılıq dərdimə dərman olarsan.
Gəl, mənim Nurlanım, gözümün nuru,

Ayım, Günəşim, nəfəsim mənim.
Anan sənsiz ağlayır hər gün,
Gəl, ömrümüzə gəlsin bahar-yaz.
Gəldiyin yollara güllər səpərəm,
Gəl, Nurlanım, gözümün nuru.
Gəl, sənsiz çətindir yaman,
Anan sənsiz ağlayır hər an...

***

Sənsiz, de, necə
Yaşayaq bu dünyada?
Necə baxaq Aya, Günəşə?
Necə baxaq gülə, çiçəyə?
Hər yer yaşıllaşır,
Ağaclar çiçək açır,
Ömrümüzə gələn yaz,





Səni bizdən ayırdı.
Nurlansız keçən
Günümüzün, ayımızın,
Hər anı bizə əzabdır.

***

Dünya boyda yüküm var mənim,
Qəm karvanından mənə də pay düşdü.
Bir zaman xoşbəxt gülən üzümə,
Qəm ocağından bir duman çökdü.

Gülən üzüm soldu mənim,
Qalan ömrüm mənasız oldu.

Nurlan deyib ağlaram hər gün,
Oğlum, sənsiz ürək yandı köz oldu.

Sən Vətən deyib bayrağı seçdin,
Şuşa deyib yola düşdün,
Vətən deyib şəhid oldun,
Ananın, elin -obanın fəxri oldun.

**HƏQİQƏT HƏSƏNOVA**
***Şəhid leytenant Nurlan Həsənovun anası***

**P.S.** *Məqalədə anasının oğlu haqqında yazdığı şeir olduğu kimi çap olunur.*

## ŞUŞAYA MƏN ÖZÜM ÜÇRƏNGLİ BAYRAĞIMIZI SANCACAĞAM




Nurlan Şuşada anadan olmuşdu, lakin Şuşada imərləmək, ayaq açıb o müqəddəs torpaqda addım atmaq ona qismət olmamışdı. Hələ Nurlan bələkdə olan vaxt məcburən Şuşanı anası ilə birlikdə tərk etmişdi, 1992-ci ilin may ayının 8-də isə hamımız Şuşanı tərk etməyə məcbur olduq. Nurlan şəkillərdə, filmlərdə Şuşanı görmüşdü, ağlı kəsəndən sonra isə həmişə Şuşaya getməyə can atırdı. Bu məqsədlə də o, döyüşlərə atılmışdı. Sağlığında özü Şuşanı görmədi, amma çox arzusunda idi ki, oranı görsün. Nurlan və Nurlan kimi oğullarımız 200 ildən çox müddətdə yalnız işğala məruz qalmış torpaqlarımızı azad etməyə müvəffəq oldular. Onlar qaçqınlıq, məcburi köçkünlük kimi bir damğanı bizim alnımızdan sildilər, üzərimizdən götürdülər. Özləri azad Şuşamızı sağlıqlarında görə bilməsələr də şəhid kimi ruhlarıyla azad torpaqlarımızın səmalarına köç etdilər və əbədi olaraq həmin səmalarda qalacaqlar.





Nurlan və Nurlan kimi balalarımız bizi öz arzularına çatdırdılar, amma özləri sağlıqlarında arzularına çata bilmədilər. Bizləri azad şuşalı etdilər, azad qarabağlı etdilər, kəlbəcərli, laçınlı, zəngilanlı, füzulili, ağdamlı, cəbrayıllı, xocavəndli, qubadlılı etdilər. Ana vətənimizin yağılar tərəfindən xaincəsinə işğal olunmuş torpaqlarını bizə qaytardılar, amma özləri qayıtmadılar. Onların sayəsində biz getdik, Şuşanı gördük, getdik, işğaldan azad olunmuş, bizim üçün müqəddəs olan digər torpaqlarımızı gördük, şəhidlərimizin qanı ilə müqəddəsləşən hər qarış torpağı, daşı, ağacı, kolu, qayanı, dağı ziyarət etdik.

O günlər bizim üçün çox çətin idi. Həm vətəndə vətənsiz olmaq, həm də evsiz-eşiksiz qalmaq. Nurlan həyatda məcburi köçkün kimi ilk addımlarını Bakıda atdı. Həyatın, vətənin, doğma ocağın nə demək olduğunu burada dərk etdi. Biz də Nurlana izah etdik ki, bizim, sənin doğulduğun doğma ocaq, doğma torpaq Şuşadır, biz əslən Şuşadanıq, Qarabağdanıq. O da hamısını dərk edirdi, yaddaşına silinməz izlərlə bu kəlmələri yazırdı, həkk edirdi. Nurlan 2014-cü ildə ailə həyatı qurdu. Mən Nurlana demirdim ki, bu işi belə etmək lazımdır, o özü hər şeyi bizim ürəyimizcə edirdi. Etdiyi işləri elə bil ki bizim ürəyimizdən keçənləri həssaslıqla oxuyub edirdi... Ev üçün hər şeyi özü alır, özü gətirirdi. Ailəsinə çox yaxşı baxırdı. Biz də bir valideyn

kimi ona dayaq dururduq. Uşaqlarını çox istəyirdi, onlarla nəfəs alır, təsəlli tapırdı. Hər dəfə işdən gələndə uşaqların Nurlanı necə qarşılaması, ona necə ata deyib üstünə yüyürməsi... Hamısı gözümüzün qabağından indi də getmir. Elə bil bunlar hamısı elə dünən olub...

Nurlan mənimlə 2020-ci ilin sentyabr ayının 28-də telefonla əlaqə saxladı. Vətən müharibəsi başladığı andan çox nigaran idik ki, o, niyə bizimlə əlaqə saxlamır? Nurlanın telefon zəngi gələndə hamımız çox sevindik. Nigarançılığı atıb onunla arxayın danışdıq. İşindən, oradakı vəziyyətindən söhbət saldıq. Söhbət zamanı mən kövrəldim, bizim qəlbimiz valideyn qəlbidir də, həmişə kövrək olur... Dedi ki, ata, niyə belə kövrəlirsən? Sən Şuşanı istəmirsən? Biz də Şuşamızı, Qarabağımızı azad etmək üçün buradayıq... Şuşamızı azad edib o mənfur düşmənimizdən neçə-neçə illərdən yığılıb qalmış qisasımızı almaq üçün buradayıq. Mən özümü çox xoşbəxt hiss edirəm, ata. Elə bil ki uca Allah məni ən ali arzuma çatdırıb. O qədər şadam ki... Sonuncu əlaqəmiz, son sözü də elə bu oldu. Dostları, döyüş yoldaşları deyirlər ki, dayı, Nurlan həmişə deyirdi ki, düşməni məhv edib, Şuşanı azad edib Şuşaya mən özüm üçrəngli bayrağımızı sancacağam. O elə həmin arzu, həmin istək, həmin ruhla da müharibəyə qatılmışdı.

Həmin qanlı-qadalı günlərin birində evə gəldim, gördüm ki, qohum-qardaş, qonum-qonşu — hamı bizim həyətə yığışıb. Təəccübləndim, soruşdum ki, nə olub, niyə yığışmısınız? Toplaşanlar təskinlik verərək mənə deyirdilər ki, qanlı-qadalı müharibədir, hər bir şeyə hazır ol. Elə bil həmin gün mənim ürəyimə dammışdı ki, oğlum şəhid olub, onu gətirəcəklər. Elə ürəyimə daman kimi də oldu, oğlum vətən yolunda şəhidliyə yüksəldi.





İndi Nurlanın dostları, xidmət, döyüş yoldaşları bu evi ziyarət edirlər. Hər gün inanılmaz sayda insanlar bura gəlir. Dostları gəlir, tanışlar, qohumlar gəlir, onlar, həqiqətən də buraya, şəhid evinə vətən fədaisinin ziyarətinə, onun ruhunu ziyarət etməyə sel kimi axışırlar. Doğrudan da buranı həqiqi ziyarətgaha çeviriblər. Nurlanın ruhu dolaşan, onun əmanətlərinin yaşadığı bu ev bir gün boş olmur. Hamısı Nurlanın müqəddəs şəhid adına gəlir. Şəhid evi olduğu üçün gəlib ziyarət edirlər. Ziyarətçilərin çoxu, bəlkə də məni yaxşı tanımır. Amma Nurlana görə məni də tanıyırlar. Mən hamısına təşəkkürümü bildirirəm. Onlara qəlbimin sağalmaz yarası və eyni zamanda qürurum olan Nurlanımdan fəxrlə danışıram. Bu, mənim üçün qürurvericidir. Nurlanıma görə müxtəlif insanlar, vətənsevərlər, şəhidlərimizi qəlblərində əbədi yaşadanlar məni də şəhid atası kimi tanıyırlar. Çünki mən Vətən fədaisi, Şuşa təşnəsi şəhid leytenant Nurlanın atasıyam. Allah şəhid olmuş bütün balalarımıza rəhmət eləsin, qazilərimizə şəfa versin, ordumuzu, xalqımızı bütün bəlalardan, düşmənlərimizin hiylə və məkrindən hifz eləsin! Amin!

***NADİR HƏSƏNOV***
***Şəhid leytenant Nurlan Həsənovun atası***

## NURGÜLÜN ATASINA MƏKTUBU

Salam, ay ata. Mənəm, Nurgül. Adımı çox sevirəm, çünki bu adı mənə sən və anam birlikdə qoymusunuz. Amma mən öz adımdan başqa deyirəm ki, mən leytenant Həsənov Nurlanın qızıyam. Ata, biz Məhəmmədlə birlikdə hər ikimiz səni çox istəyirik. Hər gün sənin işdən evə qayıtmağını səbirsizliklə gözləyirik...

Evdəkilərə deyirəm ki, atam işdən gələndə ikimizi də qucağına alardı, bizə hədiyyələr alardı... Biz səninlə gəzməyə gedərdik, ata...

Ata, yadındadır, sən mənə saçım qıvırcıq olduğu üçün "pırpızım" deyərdin...

Sən evə gələndə anam həmişə sənin ən sevdiyin yeməkləri bişirib səni gözləyərdi. Mən də pəncərədən baxıb səni görəndə qaçırdım qapıya, "ata gəldi, ata gəldi", - deyərdim... Sən bizi rayona-nənəgilə apardın...



Ata, biz səninlə hər gün danışardıq, sən zəng edəndə həmişə deyirdin: "Nurgül, qızım, darıxma, gələcəyəm, ağlama..."

İndi yazılarıma kim baxacaq? Sən axı dedin, özün





baxacaqsan?!. Mən dərslərimə baxıram, ata, amma sən yoxlamalısan, düzdür?

Amma sən yenə də gəlmədin... Bizi rayondan evimizə dayım gətirdi. Evimiz boş idi, biz gələndə sən bizi artıq gözləmirdin... Bizdən küsməmisən ki?

Yadımdadır, bir gün sən bizə görüntülü zəng etdin, yanında çoxlu əsgər var idi, elə sən də əsgər paltarında idin. Mən sənə mahnı oxudum. O mahnı yadındadır, ata?

"Vur, Komandir, vur düşməni..." mahnısını oxuyurdum. Mahnımı bitirəndə siz hamınız mənə əl çaldınız... Sən dedin ki, qızım, düşmənləri məhv edib gələcəyəm. Düşmənləri məhv etdiniz, amma yenə gəlmədin... Ata, o əsgərlər indi sənin yanındadırlar?

Mən bilirəm, sən qəhrəmansan, ata. Sən Şuşamızı azad etdin. Ana deyir ki, sən bizi göylərdən izləyirsən. Ata, bəs mən səni niyə görə bilmirəm, sən bizi görürsən?

Ata, bilirsən, mənim ad günümə ana mənə velosiped aldı! Elə çox sevindim ki! Amma təki sən qayıdasan, başqa heç bir şey istəmirəm.

Məhəmməd də çox darıxır sənin üçün. Sən deyirdin ki, onu futbolçu edəcəksən. Onunla futbol oynayardınız, yadına düşür...?



Ata, axı sən mənə söz verdin ki, gələcəksən...

## BİZ QARDAŞIMLA SƏNİ HƏR ZAMAN GÖZLƏYƏCƏYİK, QƏHRƏMAN ATAM!



Mən şəhid leytenant Həsənov Nurlanın qızı Nurgüləm. Ata, hər şeyin qalıb: maşının, saatın, paltarın, mən və qardaşım. Bircə sən yoxsan. Bil ki, evin içində nələr yaşayırıq. Sənsiz dünya olmaz. Mənim atam leytenant Həsənov Nurlan. Atam ucaboy, çox yaraşıqlı idi. Mən atamı çox istəyirəm. Mən istəyirəm ki, atam hər zaman yanımızda olsun. Ən əsası da ad günümdə yanımda olsun. Atam məni gəzməyə aparardı, ad günümdə hədiyyələr alardı. Atam məni gəzməyə aparanda maşında mahnı dinləyərdik, mən də oxuyurdum, atamın xoşuna gəlirdi. Atam işdə olanda onu gözləyirdim ki, atam tez gəlsin. Atam işdən gələndə anamla birlikdə ona süfrə hazırlayırdıq. Atam mənə saçlarım buruq olduğu üçün "pırpızbaşım", deyirdi. Mən atam üçün çox darıxıram. Mən tez-tez atamın məzarını ziyarət edirəm və məzarı üstünə gül dəstələri qoyuram. Mən atamla fəxr edirəm. Atam Şuşamızı azad etdi. Biz qardaşımla səni hər zaman gözləyəcəyik, qəhrəman atam!

**Nurgül Həsənova**

***Şəhid leytenant Nurlan Həsənovun qızı***





## MƏNİM QARDAŞIM MƏRD, CƏSUR VƏ VƏTƏNPƏRVƏR İDİ



Bir bacıya "qardaşın barədə nə deyə bilərsən?" - deyə sual versələr, gözlərinin içi gülər, sevinclə, həvəslə onun barəsində danışmağa başlayar. Mənim isə bu gün gözlərimdə sevinc yox, kədər hissi var. Amma eyni zamanda da qürurla, fəxrlə deyə bilərəm ki, mən şəhid leytenant Nurlan Həsənovun bacısıyam. İstərdim ki, sizə ilk öncə qardaşımla bağlı olan uşaqlıq xatirələrimizdən danışım. Nurlan mənə gözəl qardaş olmaqla yanaşı, həm də ilk

uşaqlıq dostum idi. O, məni hər gün gəlib bağçadan evimizə gətirərdi. Mən bağçada günorta yuxusundan oyanıb həvəslə onun yolunu gözləyərdim. Hətta bağçadan evə gedəndə verdikləri bir dilim çörək payımı Nurlanla paylaşardım. O, çörəyi yeyə-yeyə bağçanın həyətindəki tut ağacına çıxardı. Deyirdi ki, mən anama tut yığıb aparmalıyam. Hər gün bir ovuc tut yığıb anama aparardı. O günlər mənim xatirəmdən heç vaxt silinməyəcək.

Zaman keçdi, biz birlikdə böyüdük. Nurlan əla qiymətlərlə orta məktəbi bitirdi, ali məktəbə daxil oldu, gözəl ailəsi oldu. Mən də bibi oldum. Çox sevinirdik. Qardaşım böyükdən-kiçiyə hər kəsin yanında özünə hörmət qazanmışdı. Mənim qardaşım mərd, cəsur və vətənpərvər idi. Bu hissi ona anam aşılamışdı. Evimizdə həmişə Şuşadan söhbət açılırdı. Anam o qədər həvəslə danışırdı ki, hər kəs oranı görmək istəyirdi, ən başda da qardaşım Nurlan. O, özünə söz vermişdi ki, Şuşanı alacağam! Elə də oldu, Şuşa alındı, qardaşım kimi oğulların canı, qanı bahasına.

Mən Şuşanı görməmişdim. Şuşanı görmək mənim üçün əlçatmaz idi. Şuşa haqqında anam və atamdan eşidirdim. Bu xəyalımı, arzumu mənim üçün qardaşım Nurlan və şəhidlərimiz reallaşdırdı... Məni Şuşaya apardı... öz hərbi forması ilə Şuşaya ayaq basdım... Ona görə də sənə bir ömür borcluyam, amma çox heyif ki, mən sənsiz o torpaqlara getdim. Kaş ki birgə, əl-ələ gedərdik... Amma bilirəm ki, biz Şuşada olanda sən də yanımızda idin... Mən bunu hiss edirdim.

Həmişə Nəriman Həsənzadənin bu şeirini oxuyanda kövrəlirəm:





Sən məni bu qədər gözlətməmişdin,
Belə qoymamışdın gözümü yolda.
Bu qədər özünü gizlətməmişdin,
Gizlənpaç oynayan vaxtımızda da.

Hayana getsən də, dönmüşdün yenə,
Qayıdıb gəlmişdin mənsiz darıxıb.
Bu dəfə bilmirəm nə olub sənə,
Gedibsən, qayıtmaq yadından çıxıb.

Qalıb evimizdə palın paltarın,
Tələsik gedəndə kimə deyibsən?!
Qapının ağzında başmaq tayların,
Yolda ayağına bəs nə geyibsən?!.

***Ruhun şad olsun, qardaşım.***

**Gülnar Həsənova**
***Şəhid leytenant Nurlan Həsənovun bacısı***

## ƏMİNƏM Kİ, NURLAN ŞUŞANI RUHUYLA FƏTH ETDİ



Mənim üçün bu gün Nurlan barədə danışmaq çox ağrılı, acılı, eyni zamanda şərəfli və qürurludur. Çünki Nurlan yaşadığı bu qısa ömür hekayəsini elə yazdı ki, torpağını, vətənini, Qarabağını hətta görmədən, bir qarışında addım atıb yerimədən belə onu necə sevməyi övladlarına və gələcək nəsillərə öyrətdi, bu sevgini aşıladı. Bəli, görmədən... Nurlan hələ körpə ikən, 6 aylıq olanda ana laylası yerinə tank, top mərmisinin səsləri altında doğulduğu Şuşadan, torpağından, vətənindən didərgin salınmışdı. Nurlan Şuşanı anası Həqiqət xanımdan eşidib-bilmişdi. Nurlan doğma Şuşasında yarımçıq qalan o ana laylasından bu torpaqların ecazkarlığını, gözəlliklərini, mənfur erməni xislətindən intiqamın mütləq alınacağını öyrənmişdi. Bütün bu hissləri, duyğuları, vətənə olan sevgini Nurlan anasından öyrənmişdi... Bəlkə də elə buna görə bu xüsusiyyəti ilə də Nurlan hər kəsdən, həmyaşıdlarından fərqlənirdi.





Nurlanda doğulduğu, lakin boya-başa çata bilmədiyi doğma Şuşasına, vətəninə qarşı böyük bir sevgi, məhəbbət var idi. Məhz bu xüsusiyyətlərinə görə istər təhsil müəssisələrində, istərsə də onu əhatə edən insanlar arasında onu hər kəsdən fərqləndirirdilər. Məktəb illərində hər il Şuşanın işğalı günündə keçirilən tədbirlərdə Nurlanın fəal iştirakı müəllimlərinin və şagird yoldaşlarının nəzərindən qaçmırdı. O, orta məktəb illərində nümunəvi, çalışqan, əlaçı olmağı ilə yanaşı, həm də dürüst, diqqətcil, mehriban, səmimi, hər hərəkətinin yerini bilən biri kimi özünü tanıtmışdı. Sanki bütün gözəl xüsusiyyətlərin hamısı bir tək onda cəmlənmişdi. Biz gec də olsa başa düşdük ki, bu gözəl xüsusiyyətlərin daşıyıcısı olan Nurlan elə Allah dərgahında uca Allah tərəfindən seçilənlərdən olub.

Nurlan bilik öyrənməyə, savadlı olmağa var gücü ilə çalışan şagird olduğu kimi savadlı, fəal tələbə, xidməti borcunu layiqincə yerinə yetirən əsgər, əzmli hərbçi zabit, cəsur, qorxmaz və qəhrəman döyüşçü olmuşdur. Bu gün də məktəb yoldaşları və müəllimləri, tələbə yoldaşları və universitet rəhbərliyi, əsgər yoldaşları və son işlədiyi Bakı Poladəritmə zavodunun kollektivi, eləcə də Vətən müharibəsində çiyin-çiyinə düşmənə qarşı birlikdə mübarizə apardığı döyüş yoldaşları onun xatirəsini daim hörmətlə anırlar. Nurlan ağlı kəsəndən şəhadətinə kimi olan müddətdə mərdliyi, igidliyi, cəsurluğu, vətənsevərliyi ilə hər kəsin qəlbində özü üçün böyük bir iz buraxdı. O və onun kimi oğullar vətən torpaqlarını, Qarabağımızı, Şuşamızı bizlərə, gələcək nəsillərə canları, qanları bahasına qay-

tardılar və həmin torpaqları necə qorumaq yollarını özlərindən sonrakılara öyrətdilər. Biz onların bu mirasını göz bəbəyimiz kimi qorumalıyıq və gələcək nəsillərə əmanət etməliyik. Bu, bizim onlar qarşısında ən müqəddəs borcumuzdur. Onların qanları, canları bahasına azad etdikləri torpağımızın hər qarışı bizim üçün əzizdir. Çünki orada Nurlanlarımızın müqəddəs qanı var. Bu gün onların əziz ruhu Cıdır düzündə, İsa bulağında dolaşır. Nurlan Şuşa uğrunda gedən döyüşlərdə iştirak edə bilməsə də əminəm ki, o, Şuşanı ruhuyla fəth etdi, bu gün də onun müqəddəs ruhu azad Şuşa səmalarında gəzir, orada özünə daimi məskən salıb.

Bu yaxınlarda Nurlanın valideynləri Şuşanı ziyarət etdilər. İnanıram ki, bu səfər Nurlana agah oldu və bu səfərdən onun ruhu şad oldu. Nurlanın bizlərə iki övladı — Nurgül adlı qızı və Məhəmməd adlı oğlu yadigar qalıb. Bu yadigarlar nə zaman ki işğaldan azad edilmiş torpaqlarımıza, Şuşa torpağına ayaq basacaqlar, atalarının ruhu yenidən şad olacaq. Nə qədər ki vətənimiz, qüdrətli dövlətimiz yaşayır, gündən-günə qüdrətlənir, bir o qədər də Nurlanımızın, şəhid olmuş Nurlanlarımızın ruhu həmişə şad olacaq. Nurlan bu torpağı o körpə balalara, gələcəyimizə, iki gül balanı isə bizlərə, vətəninə, dövlətinə əmanət edib getdi. Ruhun qarşısında baş əyirəm, cənnət ətirli şəhidim.

Ruhun şad olsun, cənab leytenant.

**ƏSMƏR BAĞIROVA**

***Şəhid Nurlan Həsənovun xalası qızı***





## NURLAN ŞƏHADƏTİNDƏN SONRA DA BİZİ BİR YERƏ YIĞMAĞI BACARDI

Bu gün Nurlanın cənnətdəki mövlud günüdür. Tanıyanlar çoxları Nurlanla məni dayıoğlu-bibioğlu kimi yox, qardaş kimi bilirdilər. Bu həm bizim bir-birimizə bənzərliyimizdən irəli gəlirdi, həm də ki Nurlanın 29 yaşına



qədər hər günümüz bir yerdə keçmişdi. Həm uşaqlığımız bir yerdə keçib, həm də məktəbdə bir sinifdə oxumuşuq. Elə universitetdə də bir oxumuşuq. Ali məktəbdə təhsil alarkən də dörd il bir otaqda qalmışıq. Vətən müharibəsi başlayan ərəfədə tale elə gətirdi ki, Nurlan nədənsə heç

mənə demədən hərbi komissarlığa gedib könüllü olaraq orduya yazıldı. Mən təsadüfən radioda eşitdim ki, səfərbərliyə çağırış var. Birinci Nurlan ağlıma gəldi və ona zəng etdim ki, haradasan? Dedi ki, hərbi komissarlıqdayam. Məncə, bura qədər söylədiklərim Nurlanın necə mərd, şücaətli, cəsarətli, igid olmasını başa düşmək üçün kifayət edir. Mən Nurlan kimi vətənpərvər, vətənini, millətini, xalqını, torpaqlarının azadlığını öz canından daha əziz tutan başqa şəhidlərimizi, qəhrəman döyüşçü oğlanlarımızı da tanıyıram, bilirəm, əminəm ki, hamısı bir amal, bir məqsəd uğrunda canlarını əsirgəmədən fəda edən vətən fədailəri olublar. Onlar vətən torpaqlarının azadlığı üçün ölümün üzərinə gedən zaman heç ailələri, övladları, valideynləri ilə də bu barədə məsləhətləşməyiblər. Ona görə də onların hamısına Allahdan rəhmət diləyirəm. Ruhları şad olsun. Şəhid ailələrinə başınızı dik tutun deyirəm. Bu gün qürurluyam, sevincliyəm, çünki mən artıq 8 aydır ki, həm Nurlanın əvəzindən, həm də öz əvəzimdən Nurlanın, Nurlan kimi vətənsevər şəhidlərimizin, qazilərimizin canı-qanı bahasına, müzəffər ordumuzun fədakarlığı, qəhrəmanlığı sayəsində Şuşa şəhərində yaşayır, abadlıq, quruculuq işləri ilə məşğul oluram. Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmək mənə qismət olmasa da Şuşanın quruculuğunda iştirak edirəm. Amma Nurlan cismən orada yoxdur. Yəni Nurlanla mənim Vətən müharibəsinə qədər arzularımız elə idi ki, müharibədə də iştirak edərik, Şuşada da yaşayarıq, ömür sürərik deyirdik.





Şuşamız, o cümlədən işğalda olan torpaqlarımız Nurlanların sayəsində azad edildi. Lakin ən ali arzusu olan Şuşanı Nurlan görmədi. Mən orada Nurlansız gəzirəm. Mənim üçün çox ağrılı, acılıdır. Amma qürurlu, sevincliyəm ki, mən bura Nurlanın, Nurlan kimi digər şəhidlərimizin, qazilərimizin sayəsində gəlmişəm. Mən şəhid, qazi, əsgər ailələrinə deyirəm, siz əmin olun ki, orada düşmənin başı aşağıdır, siz buna əmin olun. Sizin övladlarınızın sayəsində orada düşmənlərin danışmağa sözü, baxmağa gözü yoxdur. Bütün bunlar sizin övladlarınızın sayəsindədir. Buna görə fəxr edin. Biz ağladıq, qəmdən, kədərdən deyil, sevincdən ağladıq ki, Qarabağımız azad olub. Bəli, Nurlanın yoxluğu mən də daxil olmaqla hamıya təsir edir, ona görə də bu gün Nurlanı tanıyanlar və sevənlər buradadırlar. Nurlanın elə bir ad günü olmayıb ki, dostları ilə bir araya yığışmayaq. Onun da təşkilatçısı Nurlan özü olardı. Necə ki döyüşdə də təşkilatçı olub, əsgərlərinə qarşı diqqətli, həssas, səmimi, qayğıkeş olub, elə dostlarına qarşı da eyni münasibətdə idi. Onun şəhid olmasından sonra biz ad günlərini keçirmirik. Ancaq bu gün biz yenə də onun ad günü, cənnətdəki mövlud günü münasibəti ilə toplaşmışıq. Özü cismən aramızda olmasa da yenə də Nurlan bizi bir yerə yığdı. Bu gün onun ad günündə həmişə iştirak edən yaxınlarının hamısı buradadır. Bu tədbirdə iştirak edənlərin hamısına dərin minnətdarlığımı bildirirəm. Bu gün Nurlanı mövlud günündə tək qoymadınız elə sağlığında olduğu kimi... Daha doğrusu, Nurlan bizi bir yerə yığdı. İnşəAllah, nə qədər ki

Nurlansevərlər var, bu belə də olacaq. Çünki şəhidlər ölmür, onlar yalnız unudulanda ölürlər. Biz isə şəhidlərimizi heç vaxt unutmayacağıq. Bu gün biz bura yığışıb Nurlan haqqında danışırıqsa, deməli, Nurlan ruhən buradadır. Nurlan yaşayır. Əziz şəhid anaları, sizin qarşınızda baş əyirəm. Bilin ki, övladlarınız hər birimizin qəlbində yaşayır. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Amin!

*Şəhid Nurlan Həsənovun doğum gününə həsr edilmiş tədbirdə şəhidimizin dayısı oğlu Kamil Quliyevin çıxışı.*

***19.05.2022***





## NURLAN BU VƏTƏNİN, BU XALQIN OĞLUDUR



Nurlan 1997-ci ildə Şuşa şəhər 3 saylı tam orta məktəbin birinci sinfinə daxil olub. 2008-ci ildə bu məktəbi əla qiymətlərlə başa vurub və ali məktəbə qəbul olub. Orta məktəb illərində Nurlan məktəbin bütün müəllim kollektivinin sevimlisi idi. Mən Nurlanın sinif rəhbəri olmuşam. O, orta məktəb illərində özünün davranışı, nizam-intizamı, şagird yoldaşlarına olan səmimi münasibəti, vətənpərvərliyi, dünyagörüşü ilə başqalarından seçilən bir şagird olduğuna görə hamının diqqətini cəlb edirdi. Bu gün bunun əyani sübutu ondan ibarətdir ki, bu salonda Nurlanın oxuduğu məktəbin bütün müəllim kollektivi, sinif yoldaşları, onu tanıyanlar bu tədbirdə sevə-sevə iştirak edirlər. Nurlan doğulduğu vətən torpaqlarını çox körpə — 1 yaşı olmamış tərk etməsinə baxmayaraq bir an olsun belə onun qəlbini vətən sevgisi, vətən məhəbbəti tərk etməmişdir. Elə bu sevgi, bu məhəbbət ilə də o, 2020-ci ilin sentyabr ayında vətən torpaqlarının azadlığı uğrunda başlayan mübarizəyə könüllü şə-

kildə qoşulmaqla döyüşə ilk atılanlardan biri olmuşdur. O, tərəddüd etmədən silaha sarılmış, erməni işğalında olan Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində gedən döyüşlərdə igidliklə döyüşmüşdür. Amma çox təəssüf ki, hələ ali arzusu uğrunda qəhrəmanlıqla döyüşərkən Nurlan namərd düşmənin gülləsinə tuş gəldi. Nurlan haqqında bu gün keçmiş zamanda danışmaq mənim üçün çox ağırdır. Tədbirdə iştirak edənlər, yəqin hiss edirlər ki, mən necə həyəcanlıyam və söz deməyə çətinlik çəkirəm. Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsində bizim həcm və görünüşcə kiçik, lakin mənaca böyük olan bir məktəbimiz var. Belə ki, məktəbimizin kiçik olmasına baxmayaraq, bu məktəbin payına böyük, vətən boyda ürəyi olan 2 şəhid məzun payı düşüb. Onlardan biri Nurlan Həsənov, digəri isə Vətən müharibəsinin yeganə hərbçi qadın şəhidi olan Arəstə Baxışovadır. Arəstəmizin, dövrümüzün Tomrisinin də anası bu tədbirdə iştirak edir. Bütün yüksəkliklərdən ucada dayanan bir zirvə var: Şəhidlik zirvəsi. Bu zirvəyə hər kəs yüksələ bilməz, yalnız yüksək amallar uğrunda çarpışan, qorxu bilməyən, vətən, xalq deyə canından, qanından keçən, igid, cəsarətli vətən oğulları, vətən qızları bu zirvəyə yüksələ bilər. Nurlan və onun silahdaşları, 3000 şəhidimiz belə oğullardan oldu, bu yüksək zirvəni fəth etdi. Nurlan bu gün bizim aramızda yoxdur. Nurlan ömrünün 29 illik baharını ailəsi ilə, yaxınları ilə qeyd edirdi. Amma bu gün Nurlan bu xalqın, bu vətənin oğludur. Həqiqət ana, Nadir ata, başınızı dik tutun! Bu gün Nurlan tək sizin yox,





hamımızın, bütün Azərbaycanın sevimlisi, övladıdır. Biz məktəbdə mütəmadi olaraq müxtəlif tədbirlər keçiririk. Bizim məktəbin bütün sinifləri şəhidlərimizin şərəfli adlarını daşıyır. Belə ki, məktəbin 6-cı sinfi şəhid Nurlanın, 8-ci sinfi isə şəhid Arəstənin adını daşıyır. Mən bu gün deyirəm ki, cənnətdəki doğum günün mübarək olsun, şəhid Nurlanımız! Siz əbədiyaşarsınız. Siz cismən bizim aramızda olmasanız da xoş xatirələriniz vətənsevərlərin, yurdsevərlərin, millətini, xalqını sevənlərin qəlbində əbədi olaraq yaşayacaqdır. Ruhunuz şad olsun. Yaşasın millətimiz, dövlətimiz! Eşq olsun müzəffər ordumuza! Qarabağ Azərbaycandır!

*Şəhid Nurlan Həsənovun doğum gününə həsr edilmiş tədbirdə Şuşa şəhər 3 saylı tam orta məktəbin direktoru Nərgiz Mahmudovanın çıxışı.*
***19.05.2022***

## NURLAN BİZİMLƏDİR



Müəllim ömrünün mənası, rəngarəngliyi onun şagirdləridir. Bir müəllimin ən böyük mükafatı onun şagirdlərinin həyatda əldə etdikləri nailiyyətlərdir. Uğurlarına baxıb fərəhləndiyi şagirdləri olan hər bir müəllim çox xoşbəxtdir. Mənalı baxışları, səmimi təbəssümü, kövrək qəlbi, çalışqanlığı, həssaslığı, mehribanlığı və sədaqətliliyi ilə qəlbimdə özünəməxsus yer tutan Nurlan Həsənov! O, şanlı Vətən müharibəsində göstərdiyi qəhrəmanlığı, şücaəti, mərdliyi və vətənpərvərliyi ilə məni bir daha özü barədə xatirələri vərəqləməyə sövq etdi. Daha doğrusu, onun barəsində neçə il əvvəl düşündüklərimin həqiqətə çevrildiyini öz qəhrəmanlıq salnaməsi ilə möhürlədi, təsdiq etdi. Gözümüzün önündə zərrə-zərrə böyüyən, sözdə "bizim öyrətdiyimiz" şagirdlərimiz əslində özümüz bilmədiyimiz halda məgər bizim müəllimlərimiz imiş. Bu fikrim heç kimə mübaliğəli görünməsin. Artıq düşünürəm ki, mərdliyi, qeyrəti, vətənpərvərliyi, qəhrəmanlığı, vətən





uğrunda öz canından, ailəsindən, övladlarından belə keçə bilməyi bizə bu ölməz qəhrəmanlar öyrətdi. Təhsil aldığı illər ərzində nəinki müəllimlərinin, həmçinin şagird yoldaşlarının da ancaq rəğbətini, sevgisini qazanan Nurlanın bu gedişi hər birimizi sarsıtdığı kimi həm də qürurlandırdı. Əslində "gediş" kəlməsi, məncə, doğru ifadə deyil. Nurlan heç bir yerə getməyib, ölməyib, o, şəhid olub, müqəddəs bir yolda şəhadətə yüksəlib. Cismən bizi tərk etsə də ruhən hər gördüyümüz işdə, hər getdiyimiz yolda, hər yerdə Nurlan bizimlədir. Göstərdiyi cəsurluğu ilə yüksək bir məqama ucalan Nurlan ölməz bir şəxsiyyətə çevrilmişdir. O, hər zaman, əbədiyyən bizim qəlbimizdə yaşayacaqdır. Ruhun şad olsun, əziz Nurlan!

**RUHİYYƏ ƏZİMOVA**
***Şuşa şəhər 3 nömrəli tam orta məktəb, şəhid leytenant Nurlan Həsənovun ingilis dili müəllimi***

## ÖZ ƏSGƏRLƏRİNİ QORUYA BİLDİ, ÖZÜ İSƏ ŞƏHADƏTƏ YÜKSƏLDİ



Nurlan Həsənov 2008-ci ildə Azərbaycan Texnologiya Universitetinin «Gömrük ekspertizası» ixtisasına daxil olmuş, ictimai fəallığına və təşkilatçılıq bacarığına görə elə ilk vaxtlardan, yəni 1-ci kursda qrup nümayəndəsi seçilmişdir. O, təhsil aldığı dövrdə şəhər və universitet tədbirlərində öz fəallığı ilə seçilirdi. Xüsusən də "İnzibati idarəetmə və kommersiya" kafedrasında təşkil olunan elmi seminarlarda böyük həvəslə elmi məruzələrlə çıxış edərdi. Onun hər bir çıxışı maraqla qarşılanardı. Nurlan tələbə ikən eyni zamanda bir hərbçi xarakteri, xasiyyəti, hər an döyüşə atılmaqla işğal altında olan torpaqlarımızı azad etməyə hazır olan bir amal, istək, arzu ilə yaşayırdı. "Bir nəfər hamı üçün, hamı bir nəfər üçün" kəlamı onun ən çox sevdiyi və başqalarından əvəz gözləmədən özünün də böyük həvəslə əməl etdiyi kəlam idi. Rəhbərlik etdiyi qrupda da o, bu cür ni-





zam-intizam yaratmışdı. O, tələbələrin gündəlik fəaliyyəti ilə daim maraqlanır, hər hansı problem ortalığa çıxdıqda imkanı daxilində həmin problemi özü həll etməyə çalışırdı. Bu xüsusiyyətlərinə görə də o, tələbə və professor-müəllim heyətinin rəğbətini, dərin hörmətini qazanmışdı. Qarabağla bağlı keçirilən tədbirlərdə o, xüsusi fəallığı ilə seçilirdi. Həmişə deyirdi: "Biz Qarabağımızı yaxın vaxtlarda düşmən tapdağından azad edəcəyik". Nurlan hər an Vətən həsrəti ilə yaşayırdı. Bir çoxlarından fərqli olaraq asudə vaxtlarını o, həmişə elmi kitabxanalarda keçirir, bütün sahələr üzrə biliyini artırmağa çalışırdı. O, deyirdi ki, biz düşmənimiz ermənilərdən çox-çox savadlı, bilikli, bacarıqlı olmalıyıq ki, onlara qalib gəlib torpaqlarımızdan qova bilək. Məhz bu cür düşüncəsinə və çalışqanlığına görə də o, savadlı, bilikli və qabiliyyətli bir tələbə idi. Bizim universitetdə Novruz bayramı şənlikləri həmişə yüksək səviyyədə, təntənəli keçirilərdi. Nurlan ictimai-siyasi tədbirlərdə olduğu kimi bu bayram tədbirlərində də xüsusi fəallığı ilə seçilirdi. Həmişə arzulayırdı, çıxışlarında da xüsusi vurğulayırdı ki, kaş gələn il bu möhtəşəm bayram tədbirlərini doğma Qarabağımızda keçirmək bizlərə nəsib olaydı, inanıram ki, bu, bir gün belə də olacaq! Nurlan 2012-ci ildə universiteti müvəffəqiyyətlə bitirdikdən sonra gələcək həyatını hərbçi olmaqda gördü. Biz inanırdıq ki, o, hərb sahəsini deyil, başqa bir sahəni seçsəydi, orada da böyük uğur qazanacaqdı. Nurlan arzusunun ardınca getdi və bu arzusuna çatdı. Onun da qəhrəmanlıqlar göstərdiyi

Vətən müharibəsi Ali Baş Komandanımızın rəhbərliyi altında başladı və müzəffər ordumuzun sayəsində işğalda olan torpaqlarımız, o cümlədən də doğma Qarabağımız işğaldan azad olundu. Nurlan isə namərd gülləsinə tuş gələrək canından çox sevdiyi vətən torpaqlarında şəhid oldu. Nurlan öz əsgərlərini qoruya bildi, özü isə şəhadətə yüksəldi. Onun igidlikləri, vətənpərvərliyi, qəhrəmanlıqları yeniyetmələrimiz, gənclərimiz üçün bir nümunə oldu. Onun nurlu xatirəsi qəlbimizdə əbədi olaraq yaşayacaqdır. Allah rəhmət eləsin!

***Fizuli Məmmədov***
*Azərbaycan Texnologiya Universiteti,*
*«İnzibati idarəetmə və kommersiya»*
*kafedrasının müdiri, iqtisad elmləri*
*doktoru, professor.*





## ƏN BÖYÜK ARZUM ÖVLADLARIMIN ŞUŞANI GÖRMƏSİDİR

Mənim Nurlanla bağlı xatirələrim olduqca çoxdur. Çünki orta məktəbdə birlikdə oxumağımızla yanaşı, demək olar ki, hər günümüz bir yerdə keçirdi. O, orta məktəbdə oxuduğu ilk vaxtlardan hər hansı bir məsələyə baxışı, davranışı, nizam-intizamı, səmimiyyəti, səliqə-sahmanı, tərbiyəsi, böyük-kiçiyə münasibəti ilə öz yaşıdlarından fərqlənirdi. Həmin vaxtlardan can atırdı ki, vətəni, milləti, xalqı üçün



nələrsə etsin. Biz orta məktəbdə təhsil alarkən 20 Yanvar faciəsi, Xocalı soyqırımı ilə əlaqədar tədbirlər keçirilərdi. Nurlan bu tədbirlərin təşkil olunmasında xüsusi fəallıq göstərər, həmişə düşmənlərimizin qaniçənliyindən, silahsız insanlara, qadınlara, qocalara, uşaqlara qarşı törətdikləri vəhşiliklər barədə ürək yanğısı ilə çıxış edərdi. Çalışırdı ki, düşmənlərimizin vəhşilikləri ilə əlaqədar harada nə məlumat varsa, hamısını tapsın, əldə etsin, onların törətdikləri vəhşiliklərin hamısını tədbir iştirakçılarına ürək yanğısı ilə çatdırsın, onları bu vəhşiliklər barədə məlumatlandırsın, xəbərdar etsin. O, həmişə deyərdi ki, istər biz, istərsə də bizdən sonra gələn nəsillər xalqımızın başına gətirilən bu müsibətləri, bu faciələri bir an olsun belə yadımızdan çıxartmamalıyıq. Bizim hər birimiz bildiklərimizi bilməyənlərə çatdırmalı və tarixin yaddaşına həkk etməliyik ki, mənfur düşmənlərimiz bizə qarşı hansı çirkin, mənfur, qəddar, tarixdə görünməmiş amansız hərəkətlər etdiklərini gələcək nəsillər bilsinlər. Qoy bizdən sonra gələnlər də bu qəddarlıqları, haqsızlıqları bilsinlər, düşmənləri lənətləsinlər və həmişə onların vəhşiliklərinə qarşı qisas arzusu ilə yaşasınlar. Hərdən aramızda söhbət düşəndə, arzularımızdan danışanda, Nurlan həmişə deyərdi: "Mənim ən böyük arzum övladlarımın Şuşanı görməsidir. Mən çəkdiyim Şuşa həsrətini onlar çəkməməlidir. Arzulayıram ki, övladlarım azad Şuşada məktəbə getsin, orada böyüsünlər". Torpaqlarımızın işğaldan azad olunmasında yaxından iştirak etmək və mənfur düşməndən





şəhidlərimizin qisasını almaq Nurlanın arzusu idi. Nurlan arzusuna çatdı, Vətən müharibəsi başladı, o, müharibədə iştirak etdi, igidliklə döyüşdü, qəhrəmancasına şəhid oldu. Müzəffər ordumuz düşməni darmadağın etdi, işğal altında olan torpaqlarımızı, o cümlədən Şuşamızı özümüzə qaytardı. Nurlanın arzularından biri də onun şəhadətindən sonra gerçəkləşdi; İndi onun övladları Şuşada böyüyəcək, orada məktəbə gedəcək, Nurlanın adını qürurla daşıyacaqlar.

**Emil Məmmədov**

**Şəhid leytenant Nurlan Həsənovu sevənlərin onun haqqında dedikləri:**





## OT KÖKÜ ÜSTƏ BİTƏR



Mən Nurlan Həsənov ilə birlikdə işə düzəlmək üçün 2014-cü ildə eyni gündə imtahan vermişəm. Biz eyni vaxtda müsahibədən keçmişik və eyni gündə də "Baku Steel Company"də təhlükəsizlik xidmətində işə başlamışıq. Xidmətə başladığımız gündən etibarən söhbətlərimizdə mən onun nə qədər vətənpərvər olduğunun şahidi olmuşdum. Hər dəfə Qarabağdan söz düşəndə Nurlan deyirdi ki, səfərbərlik elan olunsaydı, mən də arzularımı yerinə yetirmək, torpaqlarımızı düşməndən azad etməyə məmnuniyyətlə gedərdim. O, xidmətdə diqqətli və məsuliyyətli idi. Hər atdığı addımı fikirləşib edirdi ki, sonradan nə isə problem yaranmasın. Nurlan dostluqda səmimi, sədaqətli, dürüst insan idi. O, ailəsinə və torpağına, vətəninə bağlı, vətənpərvər, vətənsevər, qorxmaz, cəsur oğul idi. Onu itirmək bizim üçün ağır olsa da o, bizim fəxr, qürur yerimizdir. İnanıram ki, onun bizə yadigar qoyub getdiyi övladları da onun özü xarakterdə, özü xasiyyətdə vətənsevər olacaq. Çünki ot kökü üstə bitər. Allah Nurlana rəhmət eləsin.

**Etibar Teymurov**
*Şəhid leytenant Nurlan Həsənovun iş yoldaşı*

## NURLAN HƏRBÇİ OLMASI İLƏ FƏXR EDİRDİ



Mən Nurlan Həsənov ilə işdə, "Baku Steel Company"də tanış olmuşam. Onunla bir növbədə işləyirdim. Nurlan xeyirxah insan, yaxşı dost, nümunəvi işçi idi. O, mənim həm dostum, həm də sirdaşım idi. Nurlan hərbçi olması ilə fəxr edirdi. Həmişə deyirdi ki, torpaqlarımızı ermənilər sülh yolu ilə qaytarmasalar, müharibə yolu ilə qaytarmalı olsaq, mən də döyüşə gedəcəyəm, Xocalı soyqırımının, şəhidlərimizin qisasını o mənfur düşməndən alacağam, işğal altında olan doğma torpaqlarımızı düşmən tapdağından azad edəcəyəm. O, deyirdi ki, bu məqsədlə hərbçi olub. Nurlan dediyi kimi də etdi, döyüşmək üçün könüllü qeydiyyatdan keçdi və Vətən müharibəsində döyüşlərdə öndə gedənlərdən biri oldu. Onun şəhid olması xəbərini eşitmək mənim üçün çox üzücü oldu. Bununla belə o, istəyi, amalı uğrunda şəhid olsa da əminəm ki, bu gün ruhu şaddır. Çünki onun daim arzuladığı arzuları reallaşdı. İşğal altında olan bütün torpaqlarımız, Qarabağ da, Şuşa da bu gün azaddır. Allah Nurlana rəhmət eləsin. Ruhu daim şad olsun. Amin!

**İqor Podqorodetskiy**

*Şəhid leytenant Nurlan Həsənovun iş yoldaşı*





## SEVİNİRİK Kİ, NURLANIN ARZUSU ÇİN OLDU



Nurlan Həsənov "Baku Steel Company"də işləməyə başlayan gündən kollektivdə özünü nizam-intizamlı işçi kimi doğrultmağı bacardı, işinə yüksək məsuliyyətlə yanaşırdı. O, səmimiyyəti, diqqəti, xoş xasiyyəti, qayğıkeşliyi ilə qısa müddətdə işlədiyi kollektivdə hamının hörmətini qazanmışdı. Nurlanla tez-tez söhbət edirdik. O, vətənə, torpağa bağlı bir igid idi. Həmişə arzulayırdı ki, işğalda olan torpaqlarımızın, doğulduğu Şuşa şəhərinin azad olunmasında onun da payı olsun. Hər dəfə qürur hissi ilə bu sözləri deyirdi: "Ehtiyatda olan zabit kimi deyirəm ki, Qarabağda döyüşmək, torpaqlarımızı azad etmək və bu yolda şəhid olmaq mənim ən böyük arzularımdan biridir". O, bu sözləri ilə bizi heyrətləndirməyi bacarırdı.

Axır ki, Nurlan arzusuna çatdı. O, 2020-ci ilin 21 sentyabrında bizimlə sağollaşdı və könüllü olaraq hərbi təlimlərə qatıldı. 2020-ci ilin sentyabrın 27-də Vətən müharibəsi başladı və o, ön xəttə yollandı... Nurlanın şəhid olması

bizi çox kədərləndirir. Lakin digər tərəfdən sevinirik ki, Nurlanın arzusu çin oldu. İşğalda olan torpaqlarımız və Nurlanın doğulduğu Şuşa şəhəri düşməndən azad edildi, düşmən ordusu təslim olmağa məcbur edildi, şəhidlərimizin qanı yerdə qalmadı.

Allah Nurlana və bütün şəhidlərimizə rəhmət eləsin!

**Eldar Ağalarov**
*Şəhid leytenant Nurlan Həsənovun iş yoldaşı*





## ŞUŞAYA TANKIN ÜZƏRİNDƏ GİRİB BAYRAĞIMIZI ŞƏHƏRƏ ÖZÜM SANCACAĞAM



Mən Həsənov Nurlanı 2016-cı ildən tanımışam. Həmin vaxt o, "Baku Steel Company"də bizim şöbəyə yeni köçürülmüşdü. Şöbədə işə başladığı ilk gündən hər kəsə xoş münasibət bəsləyirdi. Əməkdaşların hər biri ondan razı idi. Hər kəs onu zarafatcıl, gülərüz, xoşxasiyyət biri kimi tanıyırdı. Əslən Şuşadan olan Nurlan həm də çox vətənpərvər idi. Hər dəfə Qarabağ haqqında danışanda hiss edirdim ki, gözləri dolur. Həmişə deyirdi ki, Allah qismət eləsin, torpaqlarımızı öz əllərimlə düşmən tapdağından azad edim. Elə də oldu. İkinci Qarabağ müharibəsi başlayanda Nurlan Həsənovun sevincinin həddi-hüdudu yox idi. Sevinclə deyirdi ki, axır ki, gözlədiyimiz gün gəlib çatdı. Nurlan hələ müharibə başlamazdan əvvəl səfərbərlik çağırışı ilə ordu sıralarına qatıldı, daha sonra ön cəbhəyə yollandı. Onun təlimlərdən, döyüşlərdən imkanı olanda telefonla əlaqə saxlayıb orada vəziyyətin necə olduğunu soruşurdum. Hər dəfə mənə deyirdi: "Az qalıb, Şuşaya tankın üzərində girib

bayrağımızı şəhərə özüm sancacağam". Təəssüflər olsun ki, onun arzusunu namərd düşmən yarımçıq qoydu. Nurlan şəhidlik zirvəsinə ucaldı. Şəhidimizin dediyi kimi, Şuşanı öz əlləri ilə azad edə bilməsə də, onun döyüş yoldaşları, igid qardaşlarımız, Nurlan kimi qəhrəmanlarımız 30 il düşmən tapdağında olan torpaqlarımızı, Qarabağımızı, Şuşamızı düşməndən azad etdilər. Allaha şükürlər olsun ki, torpaqlarımız düşməndən təmizləndi və əzəli sahiblərinə qayıtdı. Fəxrlə deyə bilərəm ki, bu gün şəhidlərimizin ruhu şaddır. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!

**İqbal Həbibov**
*Şəhid leytenant Nurlan Həsənovun iş yoldaşı*





## MƏN ANAMI ŞUŞAYA APARACAĞAM

*(şəhid Nurlan Həsənovun döyüş yoldaşı, əsgəri olmuş Ağa Abbasovun şəhidin anası ilə telefon söhbətindən)*



Salam, anam, necəsiniz? Uşaqlar necədir? Məni üzrlü sayın, neçə vaxtdır, heç sizinlə əlaqə saxlayıb maraqlana bilməmişəm. Onu da bilin ki, həmişə sizi düşünürəm, həmişə qulluğunuzda olmaq istəyirəm, anam. İnanırsınız ki, elə bilirəm, Nurlan haradadırsa qayıdacaq, yenə telefonla mənə zəng vuracaq, onunla danışacağam. O, həmişə mənim ürəyimdə, qəlbimdədir və mən yaşadıqca belə də olacaq. Biz onunla hərbi xidmətdə də çox yaxın dost-qardaş olmuşuq. Bilmirəm ki, necə izah edim. O, tam başqa bir insan olub. Ana, o həmişə deyirdi: "Torpaqlarımızın azad edilməsi üçün müharibə başlasın, mən birinci döyüşə atılacağam. Abasov, sürücüm də elə sən olacaqsan. Torpaqlarımızı, doğma Şuşamızı düşmənlərdən təmizlədikdən sonra ilk olaraq mən anamı Şuşaya aparacağam". O, bizim taqım komandirimiz olmaqla yanaşı mənimlə bərabər 30 nəfər əsgərin həm komandiri, həm də böyük qardaşı idi. Bizə qarşı necə tələbkar idisə, şəxsi işlərimizdə

də hər birimizə qarşı mehriban qardaş münasibətində idi. Hər birimizin çətinliyi, narahatlığı ilə şəxsən maraqlanar, qayğıkeşlik göstərər, əlindən gələn köməyi əsirgəməzdi. Bir də ana, sizi lap çox istəyirdi. Sizdən danışanda kövrəlirdi. Şuşanı azad edib sizi ora qaytarmaq üçün Nurlan ancaq səbirsizliklə müharibənin başlanılması əmrini gözləyirdi. Bütün işğalda olan torpaqlarımızı, o cümlədən də Şuşanı çox istəyirdi. Sizin oraya ayaq basmağınızı, orada olmağınızı, o yerləri yenidən görməyinizi çox istəyirdi. Aradan müəyyən zaman keçsə də mən heç vaxt Nurlanın ölümüylə barışa bilmirəm. O cür igid, mərd, cəsur, səmimi, mehriban, düşmənə qarşı amansız olan qardaşım necə ölə bilər axı? Onun şəhadətindən sonra günlərlə özümə gələ bilmədim. Bir tək təsəllim budur ki, mənim cəsur komandirim, əziz qardaşım öz arzularını çin etdi, düşməndən qisas aldı, torpaqlarımızın azad edilməsində qəhrəmanlıqla döyüşdü, torpaqlarımız düşmən tapdağından azad olundu. O, azad torpaqlarımızda ali amalı uğrunda bizdən qat-qat uca zirvəyə – şəhidlik zirvəsinə yüksəldi. Allah sənə və bütün şəhidlərimizə qəni-qəni rəhmət etsin, qardaşım, qəhrəman komandirim. Biz həmişə sizinlə fəxr edəcəyik. Nə yaxşı ki sənin kimi bir qəhrəmanı tanımışam, sənin komandanlığın altında düşmənə qarşı döyüşmüşəm. Ürəyimin unudulmayan dərdi, kədəri, qürur, fəxr yerimiz leytenant Həsənov Nurlan!

**Abasov Ağa Aydın oğlu** - *Quba şəhəri*
*Şəhid leytenant Nurlan Həsənovun əsgəri*





## NURLAN HEÇ NƏDƏN QORXMURDU

Döyüş zamanı güllələr, mərmilər başımıza yağış kimi yağırdı. İstər-istəməz biz özümüzü düşməndən qisas almaq üçün qoruyurduq. Nurlan mərmi, güllə yağışının altında sərbəst hərəkət edir, bizi mövqelərdə möhkəmləndirir, şəraitə uyğun təlimatlar verirdi. Nurlan heç nədən qorxmurdu. O, qorxmaz hərəkətləri, davranışları ilə cəsur, yenilməz bir komandir kimi hamıya təsəlli verirdi. Deyirdi, erməni kimdir ki, onun gülləsinin qabağından qaçaq, mətin olun, hər şey yaxşı olacaq. Özü də müharibəyə həvəslə, ürəklə, böyük istəklə getmişdi. Biz onun davranışlarından xüsusi ruh alaraq qartallar kimi döyüşlərə atılırdıq. Nurlanın ən böyük arzusu bu idi ki, bayrağımızı Şuşaya özü sancsın. O məhz bu amal ilə müharibəyə getmişdi. Nurlan şəhid oldu, zəfərimizi özü görə bilməsə də müzəffər ordumuz Nurlanın, eləcə də neçə-neçə Nurlanlarımızın qisasını alaraq düşmənimizi məhv etdi və üçrəngli bayrağımızı Şuşamızda dalğalandıraraq şəhidlərimizin ruhunu şad etdi. Bilirəm ki, indi Nurlanımızın müqəddəs ruhu azad Şuşamızın səmalarında şad halda cövlan edir. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin, ordumuzu, xalqımızı qorusun. Amin!

**Nurlan Həsənov**
*Şəhid leytenant Nurlan Həsənovun döyüş yoldaşı*

## UŞAQLIQ ARZUSUNA ÇATMAQ ÜÇÜN CANINDAN BELƏ KEÇMƏYƏ HAZIR İDİ



Mən İskəndərov Cavid Elçin oğlu 1991-ci ildə Lerik rayonunda anadan olmuşam. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsində «Həmlə» əməliyyat taborunda leytenant rütbəsi ilə xidmət edirdim. Uzun illərdir, gözlədiyimiz əmr, nəhayət ki, verilmişdi.

İşğal altında olan torpaqlarımızın azad olunması üçün ordumuzun döyüş qabiliyyətinin taktiki və texniki cəhətdən yüksəldilməsi məqsədi ilə ehtiyatda olan əsgər, gizir və zabitləri orduya çağırdılar. Bu qəhrəman oğullardan biri də leytenant Həsənov Nurlan idi. Bizim onunla tanışlığımız döyüşün ilk günlərində olmuşdur. Əslən Şuşalı idi. Uşaqlıq arzusuna çatmaq üçün canından belə keçməyə hazır idi. Müharibənin ilk günlərində Füzuli istiqamətində gedən döyüşlərdə Nurlan ilə çiyin-çiyinə döyüşürdük. Əmrində olan əsgərlərə öz kiçik qardaşı kimi münasibət göstərirdi. Bəzən fərqli istiqamətlərdə döyüşsək də günün sonunda görüşüb dərdləşirdik.





Arzusu yalnız və yalnız Şuşanın işğaldan azad olunması idi. Oktyabrın 1-i düşmənin son xəttini yararaq Cəbrayıla daxil olduq. Nurlanın həmin gün günorta saatlarında düşmənin üstünə aslan kimi getdiyini gördüm. Bu döyüşdə ağır yaralanıb döyüş meydanında qalmışdım. Nurlan və onun kimi digər döyüş yoldaşlarımın böyük səyi nəticəsində oradan təxliyə olundum. Mənim yarama Nurlanın nəzarəti altında müdaxilə olundu və məni Füzulidə olan hospitala təxliyə etdilər. Nurlanı son dəfə yaralı olduğum vaxt gördüm. Reanimasiyadan çıxdıqdan sonra Nurlanın şəhadət mərtəbəsinə yüksəldiyini öyrəndim. Mənim üçün ən ağır günlərdən biri oldu. Çünki bir-birimizə müharibədən sonra dostluq və qardaşlığımızı davam etdirmək sözü vermişdik. Bu vətən torpağı Nurlan kimi igid oğullar sayəsində mənfur düşməndən azad olundu. Nurlanın xatirəsi daim ürəyimizdə yaşayacaqdır!

**Cavid İskəndərov**
*Şəhid leytenant Nurlan Həsənovun*
*köməkliyi ilə sağ qalan qazi*

## NURLAN VƏ NURLAN KİMİ VƏTƏN OĞULLARININ QƏHRƏMANLIQLARINA BÜTÜN DÜNYA HEYRAN QALDI



Bizim qəhrəman övladlarımızın çox əziz, dəyərli valideynləri! Hörmətli qonaqlar! Bu gün igidimiz, qəhrəmanımız, Vətən müharibəsi şəhidi Nurlan Həsənovun doğum günüdür. Onun cənnətdəki bu doğum günü mübarək olsun. O, bizim onsuz yaşadığımız hər bir gün üçün yenidən doğulan bir qəhrəmandır. Bu gün sizlərin, şəhid analarının qarşısında baş əyir, əllərinizdən öpürük. Torpaqlarımızı canları bahasına mənfur düşmənlərimizdən azad etdikləri üçün bizim hər birimiz ömür boyu şəhidlərimizə borcluyuq. Bu qəhrəmanlıqlarına, şücaətlərinə görə şəhidlərimizin əziz ruhu qarşısında baş əyirik, onları dünyaya gətirən siz analara xüsusi ehtiramımızı bildiririk.

Övlad dünyaya gətirmək, onu qəhrəman oğul kimi böyütmək, qəhrəman oğulu torpaqlarımızı düşmən tapdağından azad etmək üçün qürurla müharibəyə göndərmək, döyüş əməliyyatlarını ürək səksəkəsi, yuxusuz gecələrlə izləmək, sonra qəhrəman övladının nəşini qəbul etmək, doğrudan da çox ağırdır. Ancaq ağırlığı ilə bərabər şəhid anası adını daşımaq həm də qürurvericidir. Tariximiz boyu qəhrəmanlarımız haqqında biz kitablardan oxumuşuq, onlar barədə çəkilmiş filmlərə baxmışıq. Ancaq cəmi 44 gün davam edib qələbəmizlə nəticələnən şanlı Vətən müharibəsində Azərbaycan oğulları bu qəhrəmanlıqları bizə əyani olaraq göstərdilər. 30 il müddətində həsrətində qaldığımız, erməni cəlladlarının işğalına məruz qalmış torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda döyüşlərə atılan vətən oğullarımızın igidliyinə, qəhrəmanlığına bütün dünya heyran qaldı. Çox təəssüf ki, bu müqəddəs yolda 3000-ə yaxın vətən övladı şəhid oldu. 3000 Azərbaycan oğlu öz ailəsindən, evindən, balalarından ayrılıb vətənini onlardan üstün tutdu və öz arzuları, amalları uğrunda canlarından keçdilər, həyatlarından məhrum oldular. Əslində isə bu, məhrumiyyət deyil, bu, əbədiyaşarlıqdır və Azərbaycan xalqı var olduqca, yaşadıqca, Azərbaycan dövləti öz qüdrətini artırdıqca bu qəhrəmanların böyüklüyü, bu qəhrəmanların rəşadəti, bu qəhrəmanların şücaəti daim yaşayacaqdır. Şəhidlərimizin əziz xatirəsi Azərbaycan xalqının, vətənsevərlərin, torpaqsevərlərin, hər kəsin qəlbində hər zaman yaşayacaqdır. Bu gün biz şəhid Nurlan Həsənovun valideynləri ilə birlikdə bütün qəhrəman şəhidlərimizin valideynlərinə üz tutub

deyirik ki, belə igid, cəsur, vətənini həyatından üstün tutan oğullarınız olduğu üçün sizlərə hər zaman minnətdarıq, bütün Azərbaycan sizlərə minnətdardır, siz başınızı dik tutun, qürurlanın, çünki siz qəhrəman oğulların valideynlərisiniz.

Bu gün cənnətində doğum gününü andığımız şəhid Nurlan Həsənov ailənin tək oğul övladı idi. Nurlan anadan olanda onun dünyaya göz açdığı doğma Şuşası çox gərgin, ağır vaxtlarını yaşayırdı. İnsanlar mənfur düşmənin tank, top atəşlərinin mərmilərindən qorunmaq üçün evlərin zirzəmilərində daldalanmağa məcbur idilər. Uşaqlar, qadınlar, qocalar yavaş-yavaş şəhərdən çıxarılırdı. Belə çətin vəziyyətdə onu dünyaya gətirən ana illər sonra onu, tək oğul övladını müharibəyə yola salır. Nurlan iki övladını, gənc həyat yoldaşını, ana və atasını vətəninə əmanət edib elə həmin vətəninin azadlığı uğrunda döyüşlərə atılır. Əzizləri isə Nurlanın yolunu gözləyirlər. Eyni zamanda düşmən tapdağında olan doğma torpaqları da öz xilası üçün Nurlanın yolunu gözləyir. Lakin Nurlan yolunu gözləyənlərdən ikincisini seçir, öz ata yurdunun, ana yurdunun, doğma yurdunun çağırışına qaçır və şir kimi döyüşlərə atılır. Bu yolda qəhrəmanlıqlar göstərərək şəhid olur. Bu, əsl qəhrəmanlıq salnaməsi, qəhrəmanlıq dastanıdır.

Nurlanın ailəsi ilə biz çox təmasda olmuşuq, söhbət eləmişik. Nurlanın anasının çox qəribə, daxildən gələn bir vətənpərvərlik hissi var. Belə bir vətənpərvər ananın oğlu başqa cür ola bilməzdi. Belə bir vətənpərvər atanın övladı





başqa cür ola bilməzdi. Ana o qədər dəyanətlidir ki, ana o qədər vətənini, torpağını, el-obasını sevəndir ki, belə bir mühitdə böyüyən Nurlan başqa cür ola bilməzdi. Çünki o, sevginin içərisində tərbiyə alıb. Onun tərbiyəsi, vətənpərvərliyi, igidliyi bu sevgidən yoğrulub. Onun müharibəyə getməyi də, şəhid olmağı da, bəlkə də o sevginin yüksək səviyyədə olmağındandır. Elə məhəbbət hekayələri, sevgi dastanları var ki, bəzən onun sonu nakamlıqla nəticələnir. Bu nakamlığı mən bütün şəhid olan qəhrəman övladlarımızın vətənə olan sevgisində görürəm, belə ki, ali istəyinə, arzusuna, amalına qovuşmaq üçün sevdiyinə nakam olmalısan. Bizim şəhidlərimiz də vətən sevgisinə görə ailələrindən, övladlarından, ata-analarından nakam qalmalı oldular. Belə vətən sevgisini hər şeydən uca tutan qəhrəman övladlarımızın torpaqlarımızı düşmən işğalından azad etməsi hər birimizin içində böyük qürur hissi yaradır, biz onlarla fəxr edirik, onları böyüdüb tərbiyə verən valideynlərlə fəxr edirik.

Bizim əldə etdiyimiz möhtəşəm qələbə şəhidlərimizin, qazilərimizin, müharibədə iştirak etmiş igid Azərbaycan övladlarının sayəsindədir, bu zəfər onların haqqıdır. Biz bu haqqı ömrümüz boyu unutmayacağıq və bu haqqın qarşısında həmişə özümüzü borclu sayacağıq. Şəhidimiz Nurlan Həsənov daim doğma Şuşamızın azadlığı arzusu ilə yaşayıb və bu arzusu yolunda da canını vətəninə fəda edib. Nurlan və Nurlanlarımız hər zaman Şuşamızın fəxridir və Azərbaycan xalqı, şuşalılar onunla, bütün şəhidlərimizlə

həmişə fəxr edəcəklər. Doğma Şuşamıza qayıtdıqdan sonra da onun, onların xatirəsini əbədiləşdirmək üçün müəyyən işlər görüləcəkdir.

Əziz şəhid valideynləri! Şəhid Nurlanımızın cənnətdəki mövlud günü bir daha mübarək olsun. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Amin! Çıxışımın sonunda tədbirin təşkilatçılarına və bütün iştirakçılarına rəhbərlik adından və öz adımdan dərin minnətdarlığımı bildirirəm.

*Şəhid Nurlan Həsənovun doğum gününə həsr edilmiş tədbirdə Şuşa RİH başçısının müavini Vüsalə Fətəliyevanın çıxışı*

***19.05.2022***





## ADI NUR OLAN NURLAN



Azərbaycan igidləri! Nə yaxşı ki xalqımızın sizin kimi Mübarizləri, nur üzlü Nurlanları vardır. Sizlər cənnət Qarabağı əziz sahiblərinə qaytardınız. Ruhunuz pərvaz edir Qarabağ səmalarında. Alınmalı olan qisasınız alındı, qiyamətə qalmadı. Vətənini azad edəsən deyə Şəhidlik zirvəsinə ucaldın, Şəhidim! Nurlandan bizə əmanət qalan ailəsi və iki körpə fidanları, uğrunda ölümüylə ölümsüzləşən üçrəngli bayrağımız yadigardır.

O bayraq üfüqlərdə dalğalanmaqdadır. Bayrağa sarılan şəhidlərimiz kimliyindən, vəzifəsindən asılı olmayaraq ölümləriylə ana torpağımıza birbaşa ömür verdilər, baş ucalığı gətirdilər. Uğrunda can verməyə on minlərlə övladı olan vətən məğlub olmadı, torpağının bir qarışını belə düşmənə vermədi, yağıdan 30 ilin qisasını aldı.

Adı Nur olan Nurlan!

Ölüm haqdır, onsuz da biz öləcəyik. Lakin şərəfli ölüm hər növ ölümdən qiymətlidir. Torpaq, uğrunda ölən varsa, Vətəndir.

Azərbaycanımızın ərazi bütövlüyü uğrunda şəhadət zirvəsinə yüksələn igidlərimizdən biri — bir yaz səhəri Şuşa şəhərində, topun, mərminin göydən yağdığı bir vaxtda dünyaya göz açan Həsənov Nurlan Nadir oğlunun qəhrəmanlığından söz açmaq mənə də nəsib oldu. Nurlan haradan biləydi ki, ana vətəni Şuşanın bir gün xilasına yollanacaq.

Xalqımızın qürur yeri olan şəhidlərimiz bizim üçün əziz və doğmadır. Nurlan da mənim qəlbimdə məxsusi yeri olan və hər zaman yaşayan igidlərdəndir. O, adını kitablara yazdıran, 44 günlük müharibənin döyüşçüsü, Zəfər tariximizdə xüsusi yeri olan şəhidimizdir. Şuşalı olması, vətən həsrəti ilə yaşaması, məhz hərbçi olması bunun bariz nümunəsidir.

Nurlan Həqiqət ananın "Şuşanı istəyirəm",- deməsini tez-tez eşidirdi. Ana vətən çağırır deyə ailəsini, iki körpə balasını, sevdiklərini xalqına əmanət edərək döyüşlərə qatıldı. Nurlan silaha sarılıb Qarabağımızın ürəyi olan ana vətəni Şuşaya bayrağı özüm sancacağam deyib ön cəbhəyə yollandı. Bir neçə rayonun geri qaytarılmasında qəhrəmanlıq nümayiş etdirdi. Şəhidimiz könüllü ehtiyatda olan zabit kimi yaralı döyüş yoldaşlarını xilas etdi.

İlahi, necə də füsunkar təbiəti var idi Şuşamızın!? İlk gün şəhərə çıxanda divarlara həkk olunmuş şəhidlərimizin qanları ilə yazılmış adlarını gördüm. Şuşa şəhidi Həsənov Nurlanın da adını oxuyunca göz yaşlarımı tuta bilmədim. Bir an Nurlanın ruhunun burada olduğunu hiss etdim. Elə gün yox idi ki, mən orada, o yüksək Şuşa qalasının zirvəsində üçrəngli bayrağımızın dalğalandığını görüb qürurla ağlamayım. Bayrağımızın o yüksəklikdə dalğalanması üçün neçə-neçə Nurlanların qanı tökülüb, bir çiynində yaralı əsgəri daşıyan, digər əlində silah tutaraq torpaqlarımızı azad edən Şuşa fatehlərimiz addım-addım zirvəyə qalxaraq nələrlə rastlaşmadılar ki!? Çox təəssüflər olsun, Nurlan Şuşaya gedən yolda qələbəyə doğru addımlayaraq şəhadətə qovuşmuşdu. Zəfər qazanmaq üçün çox canlar verdik. 44 gün xalqımız ağır və şərəfli günlər yaşayırdı, igid oğullarımızın acı xəbərləri bizləri sarsıtsa da Qarabağımızın əsl sahibləri canlarını fəda edirdilər ki, yenidən çiçəklənən yurdumuzun vətəndaşları öz evlərinə geri dönsünlər.



Başı qarlı, əzəmətli, vüqarlı Qarabağ elləri, Şuşa dağları! İgidlərimiz and içdilər torpağına, daşına, anaların ağ saçlarına ki, yağı tapdağında olan torpaqlarımızı azad edəcək, Azərbaycana vurulan yaraların intiqamını alacaqlar. Nurlan və Nurlan kimi oğullar böyük bir amal uğrunda döyüşürdülər.

***Bəlkə də, borcundan çıxmadım, Vətən,***
***Ömür bahar deyil bir də qayıtsın.***
***Öləndə qoynunda qoy ölüm ki, mən,***
***Çürüyüm, bir ovuc torpağın artsın.***

Onlar ancaq vətən dedilər, vətən üçün döyüşdülər...

Nurlanla son danışığında ana "Ehtiyatlı ol, oğul" – demişdi. Nurlan isə "Şuşanı istəmirdin, ana? Gəlmişəm, Şuşanı azad edim" – demişdi. Lakin düşmən gülləsi ona tuş gəldi, anasının qəlbinə ömürlük yara vurdu. Nurlan ali zirvəyə, uca məqama, şəhidlik zirvəsinə yüksəldi. Nurlan və onun kimi minlərlə oğullarımız şəhadətə qovuşaraq xalqımıza qələbə sevincini yaşatdılar.

Şuşa həsrətində olanlardan biri də mən idim. Keçən ilin dekabr ayında Şuşa-Xankəndi yolunda keçirilən aksiyanın 10 günlük iştirakçısı oldum. Hər gün səhər pəncərəni açıb Şuşanın ecazkar mənzərəsini görür, havasını udurdum.

Nurlan kimi qəhrəman oğullarımız Azərbaycanın fəxridir.

"Vətənə borcunu ödəmək yolu torpağa, millətə sevgidən keçir",- dedi Nurlan. Şəhidlər ölmür, qəlblərdə, xatirələrdə yaşayır, onların ruhu isə o halda rahat olur ki, uğrunda canlarından keçdikləri vətənləri azad, vətəndaşları isə xoşbəxt olur. Rahat uyuyun, şəhidlərim. Xalq tərəfindən qərinələr, əsrlər keçməsinə baxmayaraq əsla unudulmayan insanlardır Şəhidlər.

Qarabağı biz qaytarmadıq, gözüyaşlı qalan anaların oğulları qaytardı, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımıza sancanda düşmən gülləsinə tuş gələnlər qaytardı.

Qarabağı Azərbaycan xalqına Vətən sevgisiylə yaşayıb Şəhadətə ucalanlar qaytardı. "Şəhid oldum ki, qarışım torpağa, torpağın artsın, vətən" – dedin, nur saçan Nurlanım.





Şəhid oldun ki, Zəfər çalsın vətənimiz, dalğalansın bayrağımız, meydan oxusun dünyaya hünərimiz, var olsun ordumuz, Ali Baş Komandanımız.

Yaşasın qalib, zəfər çalmış Azərbaycanımız! Şəhid oldunuz ki, azad yaşasın millətimiz, vətən dediniz, bayrağa büküldünüz. Tarix yazdınız, Şəhidlərimiz, Qazilərimiz.

Məqalənin son sözlərini Ali Baş Komandanımızın söylədiyi sözlərlə bitirməyi özümə borc bildim.

"Əziz Şuşa, sən azadsan. Əziz Şuşa, biz qayıtmışıq. Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

**Arzu Əliyeva**
*ixtisasçı*

## ŞUŞALI ŞƏHİD NURLAN



Qanlı-qadalı gündə,
Bir nur gəldi dünyaya.
Adı Nurlan olsa da,
6 ayına qədər
Körpə, nuru görmədi,
Günəş nədir, bilmədi.
Zirzəmidə böyüdü,
Ana laylasından çox
Top səsləri eşitdi.

Sonra isə Şuşadan
Başlandı köç qatarı.
Eldən-elə köçdülər,
Dolaşdılar yolları.
Köç dayandı Bakıda
Yataqxana küncündə
Yerləşdilər köçgünlər.

Gəldi məktəb illəri
Sanmayın, qəlbi güldü.
Nurlan "köçkün" adını
İkinci adı bildi.
Nurlan yaxşı oxudu,
Dostları da çox oldu.
Amma ki, "köçkün" adı,





Qəlbinə bir ox oldu.
Atanın tutqun üzü
Ananın yaşlı gözü
Qəlbini dağlayırdı,
Hər şeyi anlayırdı.

Tələbəlik illəri
Dostu Kamillə birgə
Keçdi qədim Gəncədə.
"Şuşalı Nurlan" kimi
Hamı onu tanıdı.
Arabir də yolunu
Hacıkənddən salırdı.
Ana qohumlarıyla
Görüşürdü arada –
Xocalı qaçqınları
Yığışmışdı orada.
Yurd həsrəti səngimir,
Qəlbləri yandırırdı.
Xocalı dəhşətləri
Yaddan çıxmır
Hamının,
Hər kəsin xəyalında
Qisas hissi yatırdı.
Sonsuz ağrı alışır,
Qəlbdə tonqal çatırdı.
Nurlan buna əmindi:
Bir gün o tonqal yanıb,

Ərşə būlənd olacaq -
Vətən azad olacaq!

Tələbəlikdən sonra
Hərbi xidmət onunçün
Oldu sınaq illəri.
Döyüş əzmi qazandı.
Öyrəndi hərb elmini.
Bir şəkil də yadigar
Qalıbdır o illərdən:
Nurlan diz çöküb yerə,
Düzübdür gilizləri,
Güllə ilə yazıbdır
Sevdiyi bu sözləri:
«Şuşa, bizi bağışla
Hələ əsarətdəsən.
Azadlıq gələcəkdir,
Vətən, inan buna sən.

Hərbi xidmətdən sonra
Döndü köçkün evinə.
Nurlan sevdi, sevildi
Toy məclisi quruldu.
İlk övladın doğumu
Ömrünə işıq oldu;
Ömrünə bəzək oldu.
Ata Nurlandan «Nur»u
Ana Gülnardan «Gül»ü





Alaraq qoyuldu ad
Nurgül etdi onu şad.
İkinci qızın ömrü
Yarıda qırılsa da,
Bu dərdi unutdurdu,
Sonra oğul övladı -
Məhəmmədin gəlişi,
Nurgülün xoş gülüşü
Qəlbə sevinc gətirdi.
Ancaq bu səadəti
Bir fəlakət bitirdi.
Ömrü uzun sürmədi.

Müharibə başladı:
Nurlan kimi oğullar
Cəbhəyə yollandılar.
Nurlan könüllü oldu:
Qanad açıb Şuşaya
O uçmaq istəyirdi.
Otuz illik həsrətə
Son qoymaq istəyirdi.
Döyüşlərə can atan
Nurlan elə tələsdi,
Kimsəylə görüşmədən
Cəbhəyə yola düşdü.
Arxasınca səslənən,
«Oğul, hara gedirsən? –
Soruşan anasına

Bircə kəlmə dedi o:
«Vətən, məni çağırır
Döyüşməyə gedirəm
Sizisə Məhəmmədə
Mən əmanət edirəm».
Anası mat-məəttəl
Qaldı onun sözünə
Oğlu onları niyə
Balaca Məhəmmədə
Əmanət edir görən?
Nurlan niyə elə tələsir
Sanki gecikəcəkdi
Sevgilisiylə görüşə?
Ana nə biləydi ki,
Oğlu şəhid olacaq...
Ailə Məhəmmədin
Ümidinə qalacaq...

Döyüşdə öndə getdi
«Cənab leytenant» Nurlan.
«Şəhid olmaq arzusu ilə»
Bu söz də yadigar qaldı ondan.

2 oktyabr 2020-ci il...
Bu şəhid xəbəri çatdı ellərə.
Şuşa şəhərinin ilkin şəhidi
Şəhid Nurlan oldu, düşdü dillərə.
Nurlanın Bakıda köçkün evinə,





Böyük qəm karvanı yola düzəldi.
Döyüşə ən öndə gedən leytenant,
Döyüş dostlarının çiynində gəldi.
Vay-şivən səsləri göyə yüksəldi.
Çağırdı anası, dostu, sirdaşı,
Əbədi yuxudan oyanmadı o.
Həmişə hamıya saygısı böyük
Bəs niyə heç kəsə cavab vermədi?

Həmişə döyüşə öndə gedirdi,
İndi də məzarı başda durubdu.
Həmişə dostlarla mehriban olub
İndi Xiyabanda
«Məclis» qurubdu.
İndi də dostları və sirdaşları
Xiyabana yol salıbdır.
O həyat sevgili, o igid oğul
İndi məzar altda sakitcə yatır.

Ana Xiyabana gedənə qədər
Nələri düşündü, bir Allah bilir.
Daha heç bir seçim qalmayıb
Oğlu ilə görüşmək üçün ancaq
Şəhidlər Xiyabanına o getməlidir.
İndi ana necə etsin?
Necə getsin bu ağır yolu?
Axı bu yolun hər addımı
Sonsuz məşəqqətlə dolu.

Ana gözlərində gündüz – gecədir.
Ana birtəhər qüvvət topladı.
Dedi: gedim görüm balam necədir?

Çatdı məzarlığa biçarə ana,
Məzar bənzəyirdi bir gülüstana.
Güllər arasından boylanıb baxır
Daşa həkk olunmuş Nurlanın şəkli.
Canlı kimi baxır, ancaq dinməyir,
Ana nə söyləyir, onu dinləyir.
Ana hiss etdi ki, ağlı oynadı,
Özünü öldürmək, ölmək istədi.
Oğlunu beləcə görmək istədi.
Birdən ayıldı ki, Nurlan şəhiddir,
Şəhidlər məkanı cənnətdir ancaq.
İntihar edənin yeri cəhənnəm,
Oğluyla görüşü necə olacaq?!
İntihar fikrindən əl çəkdi ana,
Dözə bilsə, bəlkə, qovuşar ona.
Hələlik isə... Hər gün ana,
Üz tuturdu Xiyabana.
Nurlanı ziyarət edənlər çoxdu
Ancaq bir nəfər...
Bu ağır yolları getməyə qorxdu.
Tabutu görsə də, inanmır buna.
Gözləri yoldadır, qulağı səsdə
Nurlanı gözləyən – onun yarıdır,
Onun Gülnarıdır, vəfadarıdır.





Elə hey deyir ki, o gələcəkdir.
Mənim göz yaşımı o siləcəkdir.
Başsız qoymayacaq o Gülnarını
Nurgül, Məhəmməd tək balalarını.

Nurlan şəhid oldu
Bir il ötəndə
Dostu Kamilin də oğlu doğuldu.
Nurlanın adını yaşatmaq üçün
Dostunun adını oğluna qoydu.

Həyat davam edir, yeni Nurlanlar
Yeni qəhrəmanlar gəlir dünyaya.
«Cənab leytenant»ı oxuyur Nurgül,
Gah da atasına hesabat verir:
– Bax, ata, səninçün mən oxuyuram,
Səninçün məktəbdə "əla" alıram.
Mən sənin adını uca tuturam,
Axı mən qəhrəman, şəhid qızıyam.

## ŞƏHİD ANASININ DİLİNDƏN

Oğul, səndən diləyim var,
Bağçada bar olanda gəl.
Sağlam vaxtımda gəlmədin,
Barı bimar olanda gəl.

Bu dünyanın qəm yükünü
Ana kimi çəkən varmı?
Şəhid üçün qan-yaşını,
Ana kimi tökən varmı?

Quşlar gətirəcək balamdan xəbər,
Qərib quşun yorğun düşüb qanadı.
Qonubdur bağçama səssiz-sədasız,
Qara xəbər çatdırmağa qərarsız.

Bədənimdə yara yox ki,
Bağlayalar bu yaramı.
Sızlayan qəlb yarasıdır,
Tapılmayır heç dərmanı.
Yola baxın, bəlkə, gördüz balamı,
Dərmansız dərdimin odu dərmanı.

Yazı yazdım Qarabağın daşına,
Qurban olum, oğul, qələm qaşına.
Sənsiz keçən aylarımda, ilimdə,
Heç bilmirsən nələr gəldi başıma.

**Səmayə Mirzəyeva**





## RUHUNUZ ŞAD OLSUN!
## EY ŞƏHİDLƏR!

***Şəhid leytenant NURLAN NADİR oğlu HƏSƏNOVUN əziz xatirəsinə həsr olunur.***



Qarabağ torpağında, qan axır, qan tökülür!
Azğın-xain düşmənin, bu gün bağrı sökülür.
Azərbaycan övladı, düşmən üstə atıldı,
Fitnəkar erməninin, ruhu oda çatıldı.
Düşmənlərin bu yerdə, nə ruhu var, nə goru,
Doğma-ana vətəni!
Qoru döyüşçü! Qoru!
Nurlan da dayanmadı, silah aldı əlinə,
Yollandı ağır gündə, Qarabağ ellərinə.
Xəyalı dolaşırdı, göz açdığı Şuşada.
Vətən dərdi çökübdür, ağaca da, daşa da.
Xalqımın övladları, silaha sarılıbdır,

Düşmənlərin cəbhədə, ümidi qırılıbdır.
Vətən oğlu çəkinmir, mərmiyə gərir sinə,
Silah əldə atılıb, dayanmır-durmur yenə.
Qızğın döyüş zamanı, qəhrəman aldı yara,
Bircə anda gözünə, bu yerdə çökdü qara.
Nurlanın arzuları, tükənmədi-bitmədi,
Xalqın qəhrəman oğlu, doğma yurda yetmədi.
Şəhidlik məqamına, bir gecədə ucaldı,
Dünyadan vaxtsız köçüb, nə gün görüb qocaldı?
Oğlun Məhəmməd gedər, ana yurdun Şuşaya!
Şəhidin arzuları, tarix boyu yaşaya.
Gəzər Cıdır düzünü!
Görər qədim Qalanı!
Açılıb düşmənlərin, paxırı, həm yalanı.
Qızın Nurgül böyüyər, Şuşada addım atar,
Qarabağ şikəstəsi, ərşi-əlaya çatar.
Gəzər doğma vətəndə, gəzər Cıdır düzündə,
Xatirəni yad edər, Xarıbülbül üzündə.
Nurgül balan adına, tər çiçəkləri dərər.
Şəhid məzarı üstə, təzə tər güllər sərər,
Ey şəhidim, unutmaz!
Səni nə dövran-zaman!
Allahdan istəyirəm!
Ruhunuza mən aman!

***Qurban Papaqçıoğlu***
***05.10.2020***





## ŞƏHİD NURLAN

***Şəhid Nurlan Həsənovun əziz xatirəsinə***




Vətənin igidi, vətənin mərdi,
Saldın ürəklərə sən yaman dərdi,
Gedişin hər kəsin qəlbini dəldi,
Şəhidlik adına yüksəldin, qardaş!

Şəhid Nurlan kimi düşdün tarixə,
Hər kəsin dilinin əzbəri oldun.
Qisasın torpağın alındı, qardaş!
Sən öz məzarında hey rahat uyu!

O iki balanın gözləri yaşlı,
Gəldilər məzarın üstə təlaşlı.
Dedilər gözlərin aydın ay ata
Şuşa torpağımız artıq alındı.

***Üzeyir Tahiroğlu***

## ŞUŞANI ALMAĞA GEDİRƏM, ANA



Bir yaşında anasının qucağında Şuşanı tərk edən Nurlan 28 il sonra yurduna dönmək üçün canından keçdi

Həqiqət xanımla tanışlığımızın 15-16 illik tarixi var. Bakının Biləcəri qəsəbəsində onun tibb bacısı kimi çalışdığı 2 nömrəli dəmir yolu poliklinikasında tanış olmuşduq. Məcburi köçkün olduğunu söyləmişdi. 1992-ci ilin aprelində doğma yerləri necə sarsıntılar içində tərk etdiyini göz yaşları ilə xatırlayırdı. "Bakıda doğulan körpəm Şuşada yaşamağı arzulayır". 2007-ci il aprelin 26-da "Azərbaycan" qəzeti Həqiqətin bu sərlövhə ilə qeydlərini də dərc etmişdi.

Həqiqət Həsənova Xankəndi şəhərində tibb texnikumunu bitirmiş və sonra elə orada poliklinikada çalışmışdı. Məlum hadisələr baş verəndə azərbaycanlı həkim və tibb bacıları təzyiq altında iş yerlərini tərk etməli olmuşdular. Həqiqət Şuşaya gələrək oradakı sanatoriyada işləməyə başlamışdı. Təəssüf ki, bu da uzun sürməmişdi.

Ailəsi və doğmaları ilə birlikdə Biləcəridə məskunlaşan





bu xanıma yurd həsrəti bir an belə dinclik vermirdi. Düşmənə nifrət, intiqam hissi aşıb-daşırdı. Deyirdi ki, lazım gələrsə, döyüşə də gedər. Həm də tibb bacısı kimi deyil, əsl əsgər kimi... Kim düşünə bilərdi ki, döyüşmək onun deyil, Şuşanı anasının qucağında, o vaxt hələ bir yaşı tamam olmayan körpə kimi tərk etmiş Nurlanın alnına yazılıb. Lakin bu, illər sonra baş verəcək...

Bakıda ailənin ikinci övladı - qızı Gülnar dünyaya gəldi. Həqiqət deyirdi ki, böyüdükcə, ağılları kəsdikcə, uşaqları Şuşa deyib, Şuşa eşidirlər. Qarabağ, Şuşa ona görə uşaqların dilindən düşmürdü ki, bu barədə evdə hər gün söhbət gedirdi. Xüsusilə ananın sözü-söhbəti tükənmirdi.

- Xankəndidəki poliklinikada çalışan həkim və tibb bacılarından cəmi beş-altı nəfəri azərbaycanlı idi. Ermənilərin onları görməyə gözü yox idi. Məni də ilk gündən sevmədilər. İllah da ki, mən azərbaycanlı xəstələrə qayğıkeşliklə yanaşanda, onların nazını çəkəndə erməni arvadları pıçıldaşır, özlərinə yer tapa bilmirdilər. Ermənilər qanımızı içməyə hazır idilər. Əlbəttə, biz onlara yüz qat artıq nifrət edirdik... Bununla belə, mənfurlar Xankəndidə yağ içində böyrək kimi yaşayırdılar. Belə bir şərait bəlkə də Azərbaycanın heç bir digər rayonunda yox idi. Ancaq onlar tülkü hiyləgərliyi ilə qabaqdangəlmişlik edib deyirdilər ki, bu bölgədə iqtisadi inkişaf geri qalıb, əhali yaxşı dolana bilmir. Arxamızca danışır, ayağımızın altını qazırdılar və "qara məni basınca, mən qaranı basım" prinsipi ilə bizi millətçi adlandırırdılar.

Həqiqətin atası Yelmar Quliyev tarix müəllimi olmuşdu. Odur ki, o, atasından da mükəmməl tarix dərsləri almışdı və bu baxımdan da keçmişimizə, dost-düşmənimizə yaxşı bələdliyi vardı. Bir dəfə Həqiqət oğlunun tarix dərsliyindən Ulu Öndər Heydər Əliyev haqqında oxuduğunu görüb özünü saxlaya bilmədi. "Tarixi yaxşı öyrənmək lazımdır, oğlum", - dedi. Heydər Əliyev ermənilərin qorxduğu və çəkindiyi şəxsiyyət idi. Bir vaxt Qorbaçov SSRİ dövlətinin rəhbərliyində çalışan Heydər Əliyevi qəsd-qərəzliklə vəzifədən uzaqlaşdırdı. Moskva radiosu bu xəbəri verəndə Xankəndidəki ermənilərin çiçəyi çırtladı. Dildə bir söz deməyə cəsarətləri çatmasa da, bütün gün deyib-gülür, bir-birinin əlini sıxır, yeyib-içirdilər. Amma yazıqlar bilmirdilər ki, bizim Ulu Öndərimizi məğlub etmək mümkün deyil..."

- Eləcə də xalqımızı, - deyə Nurlan onun sözünü kəsdi. – Sən heç darıxma, ana, gedəcəyəm, Qarabağı, Şuşanı qaytaracağam. Təki Prezidentimiz İlham Əliyev əmr versin. Məktəbdə dostlarımla bu barədə çox söhbətimiz olur. Demə ki, yaşımız çatmır, günü bu gün gedərik döyüşə!

O vaxt Nurlan hələ Bakıda Şuşa 3 nömrəli orta məktəbində təhsil alırdı. Bu arzusunun çin olmasına, əlinə silah götürüb düşmən üstünə şığıyacağı günə hələ nə az, nə çox – 15 il qalırdı. Bu 15 ildə nələr baş verəcəkdi, onu hələ heç kəs, o cümlədən Həqiqət də bilmirdi. Ancaq Həqiqətin artıq dərk etdiyi bir həqiqət vardı: Vətən sevgisini hələ övladı körpə ikən onun beləyinə hopdurub, laylaları ilə qəl-





binə köçürüb, bu hissi uşağa ailədə anasından, atası Nadir kişidən aldığı təlim-tərbiyə, gördüyü nümunə, eşitdiyi söhbətlər, xatirələr aşılayıb... Nurlan deyirdi ki, Vətən uğrunda vuruşmağı, yeri gələndə ölməyi də hər bir oğul özü üçün səadət saymalıdır.

Lakin o, hələ oxuyacaq, 2008-ci ildə orta məktəbi əla qiymətlərlə bitirəcək, Azərbaycan Texnologiya Universitetində "İnzibati idarəetmə" ixtisası üzrə ali təhsil alacaq. 2012-ci ildə universiteti bitirəndən sonra hərbi xidmətə çağrılacaq. Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmət keçəcək. Daha sonra leytenant kimi Gəncədə "N" saylı hərbi hissədə müddətli xidmətdə olacaq. 2014-cü ildə ehtiyatda olan zabit kimi ordudan tərxis ediləcək.

2015-ci ilin xoş bir günündə Həsənovlar ailəsi çoxdankı arzusuna çatdı. Nurlana toy çaldırdı, evə gəlin gətirdi. Sonra da iki şirin-şəkər nəvənin – Nurgülün və Məhəmmədin dünyaya gəlişinin sevincini yaşadı. Nurlan ailə qurduğu Gülnarə xanımla xoşbəxt yaşayır, sanballı bir şirkətdə çalışırdı. Elə bil hər iş qaydasında gedirdi. Amma bu, ilk baxışda belə idi. Axı yurd həsrəti vardı, düşmənlə bütün olub-keçənlərin "haqq-hesab"ını çəkmək qalırdı. Qarşıda hələ şəhidlərin, Şuşa nisgili ilə dünyasını dəyişən neçə-neçə doğma insanın qisasını almaq dayanırdı.

Odur ki, 2020-ci il sentyabrın 21-də Nurlan Həsənov könüllü kimi təlimlərə qoşuldu. Sentyabrın 27-də isə işğal altında olan torpaqlarımızın azad edilməsi üçün başlanan

Vətən müharibəsində Silahlı Qüvvələrimizin sadiq zabiti kimi döyüşə atıldı.

-Sanki davaya deyil, toy-bayrama getmişdi, - deyir Həqiqət xanım. – Sevinirdi elə bil. Deyirdi ki, narahat olmayın, hər şey yaxşı olacaq. "Şuşanı almağa gəlmişəm". Sözünü hər dəfə belə bitirərdi...

Şuşada yaşamağı arzulayan igidimiz Vətən müharibəsinin ilk şuşalı şəhidi oldu. Füzuli və Cəbrayıl istiqamətində döyüşlərdə şücaət göstərdi. Oktyabrın 1-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına canından keçdi. Ölümündən sonra Prezident İlham Əliyev tərəfindən "Cəsur döyüşçü", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olundu.

"Nurlanın ömür yolu yarımçıq qırıldı" deməyək. Bu yol şəhidlik adlanan bir zirvəyə yüksəldi. Elə bir zirvəyə ki, həmişə görünəcək, qürur mənbəyi olacaq. Vətən, xalq, Nurlan Həsənovun doğmaları və bu gün atasızlıq acısı çəkəçəkə böyüsə də, ömür boyu başı uca, qəlbi iftixarlı olacaq bir cüt balası üçün.

**FLORA SADIQLI**
***"Azərbaycan" qəzeti redaksiyasında***
***iqtisadiyyat şöbəsinin müdiri***
***18 oktyabr 2022-ci il***





## ŞUŞA SƏMASINDA DOLAŞAN İGİD

44 gün davam edən Vətən müharibəsi 30 il ərzində işğal altında qalan torpaqlarımızın azad olunması ilə yekunlaşdı. Başqa sözlə, hər vətəndaşı Orduya çevrilən həmrəy və döyüşkən xalqımız, Dəmir yumruqlu Ali Baş Komandanımız və Müzəffər Ordumuz haqq savaşımızda Şanlı qələbə çaldı. Bütün dünya Azərbaycan xalqının həmrəyliyinə və Ordumuzun gücünə heyrət etdi. Bu qələbəni xalqımıza bəxş edən, öz qanları və canları hesabına torpaqlarımızı azad edən qəhrəman Vətən oğulları qarşısında bir ömür boyu borcumuzu ödəyə bilməyəcəyik. Adını Şanlı Zəfər tarixinə yazdıraraq başımızı uca edən, qürurumuzu qaytaran igid oğullardan biri də Nurlan Həsənovdur.

Nurlan Nadir oğlu Həsənov 1991-ci il mayın 19-da Şuşa şəhərində anadan olub. O, ailənin ilk övladı idi. Körpə yaşlarından didərginlik həyatı yaşayan Nurlanın ailəsi Bakı şəhərində məskunlaşıb.

1997-ci ildə Bakıda Şuşa şəhər 3 nömrəli tam orta məktəbə daxil olub, 2008-ci ildə həmin məktəbi əla qiymətlərlə başa vurmuşdu. 2008-2012-ci illərdə Azərbayan Texnologiya Universitetinin "İnzibati idarəetmə" ixtisası üzrə təhsil almışdı.

Nurlan hər zaman vətənpərvərliyi, mərdliyi, əsl kişi xarakteri ilə çoxlarından fərqlənirdi. Azərbaycan Texnologiya Universitetinin İnzibati idarəetmə və kommersiya

kafedrasının müdiri Füzuli Məmmədov Nurlan Həsənov haqqında xatirələrini dilə gətirir: "Nurlan ilk gündən nizam-intizamı, oxumağı ilə fərqlənirdi. O, tələbə yoldaşları ilə mehriban rəftar edir, xoş ünsiyyəti ilə özünü hər kəsə sevdirirdi. Müəllimləri də həmişə Nurlandan razılıq edirdi. Çünki dərslərini yaxşı oxuyur və müəllimlərinə qarşı daim diqqətli olurdu. Ruhunu Şuşadan alan Nurlan vətənpərvər gənclərimizdən biri idi. Onun vətənpərvərliyi məhz zabit olmasına səbəb oldu. Universiteti qurtaran kimi hərbi xidmətə yola düşdü. Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olan Nurlan zabit kimi tərxis olundu. Vətən müharibəsində könüllü olaraq döyüşlərə qatılan Nurlan Həsənovun şəhidlik xəbəri hər birimizi dərin kədərə boğdu. Eyni zamanda bir daha Nurlanla fəxr və qürur hissi keçirdik. O, bizim qəlbimizdə əbədi yaşayır və yaşayacaqdır."

Nurlan Həsənov minlərlə cəsur oğullarımız kimi 2020-ci il sentyabrın 21-də könüllü olaraq təlimlərə qoşulub, sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində iştirak edib.

Nurlan Həsənov qisas arzusu ilə döyüşlərə atıldı. O, bir yaşında ata-ana qucağında çıxdığı Şuşaya əlində silahla qayıtmağı istəyirdi. Füzuli və Cəbrayıl istiqamətində döyüşlərdə fəal iştirak edən Nurlan: "Ana, məndən narahat olmayın, burada hər şey yaxşıdır, Şuşanı almağa gəlmişəm" - deyirdi.





Oktyabrın 1-də Füzuli istiqamətində qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Oktyabrın 2-də Bakı şəhərində, yaşadığı Biləcəri qəbiristanlığında torpağa tapşırılıb.

Nurlan Şuşanın azadlığını görə bilməsə də, döyüş yoldaşları onun müqəddəs arzusunu yerinə yetirərək Şuşanı düşmən tapdağından xilas etdilər.

Şuşa həsrətli, nurüzlü Şəhidimizin indi müqəddəs və şad ruhu Şuşamızın səmalarını dolaşır.

Nurlanın Nurgül adlı qızı və Məhəmməd adlı oğlu yadigar qalıb.

Torpaqlarımızın bütövlüyü uğrunda canından keçən oğullarımızın ruhları qarşısında baş əyirik!

**QALİB QULİYEV**
***Azərbaycan Texnologiya Universitetinin tələbəsi***


Нурлан Гасанлы
Jan 31, 2014 at 1:57 PM
Az qalib artiq ,,,,her weye her zaman hazir olun,,Wehid kimi olmek arzusu ile,,Nur












@1xeber.az
Şəhadətindən öncə döyüş yoldaşlarına
"Şəhid olacağımı bilirəm,
ancaq kaş Şuşanı görəydim" deyən,
son nəfəsinə qədər Şuşanın
arzusunda olan leytenant Nurlan Həsənov...
Ruhun şad olsun!



FƏXRİ FƏRMAN

Leytenant Həsənov Nurlan Nadir

"RAMAZAN BAYRAMI" münasibəti ilə nümunəvi hərbi xidmətinə, döyüş və ictimai-siyasi hazırlığında əldə etdiyi nailiyyətlərə görə

TƏLTİF OLUNUR

HƏRBİ HİSSƏ 777

777 saylı hərbi hissənin komandiri

polkovnik Münasib BABAYEV







FƏXRİ FƏRMAN

Leytenant Həsənov Nurlan Nadir oğlu

26 İYUN - SİLAHLI QÜVVƏLƏR GÜNÜ münasibəti ilə nümunəvi hərbi xidmətinə, döyüş və ictimai- siyasi hazırlığında əldə etdiyi nailiyyətlərə görə

TƏLTİF OLUNUR

777 saylı hərbi hissənin komandiri

polkovnik Münasib BABAYEV

HƏRBİ HİSSƏ 777



FƏXRİ FƏRMAN

leytenant Həsənov Nurlan Nadir oğlu

Azərbaycan Respublikasının Suverenliyi,arazi bütövlüyünün bərpası və "VƏTƏN MÜHARİBƏSİNDƏ"göstərdiyi şücaətə görə

TƏLTİF OLUNUR

769 nömrəli hərbi hissənin komandiri

kapitan Bayram Hüseynov

HƏRBİ HİSSƏ 769

"23" dekabr 2020-ci il







AZƏRBAYCAN RESPUBLİKASI
SİLAHLI QÜVVƏLƏRİNİN
TƏLİM VƏ TƏDRİS MƏRKƏZİ

EHTİYAT ZABİT HAZIRLIĞI
KURSUNU BİTİRMƏ HAQQINDA

SERTİFİKAT
EZ № 898

| | |
|---|---|
| Rütbəsi | : Leytenant |
| Soyadı | : Həsənov |
| Adı | : Nurlan |
| Atasının adı | : Nadir |
| Doğulduğu yer | : Şuşa |
| Doğulduğu tarix | : 19.05.1991 |

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 09 avqust 2012-ci il tarixdən 26 sentyabr 2012-ci il tarixə kimi fəaliyyət göstərən *motoatıcı taqım komandiri* kursunu bitirmişdir.

Saleh KƏLƏNTƏROV
polkovnik
MƏRKƏZ RƏİSİNİN
TƏDRİS İŞLƏRİ ÜZRƏ
MÜAVİNİ-ŞÖBƏ RƏİSİ

Fikrət İBRAHİM-ZADƏ
polkovnik
MƏRKƏZ RƏİSİ


AZƏRBAYCAN RESPUBLİKASI

DİPLOM

DÖVLƏT ATTESTASİYA KOMİSSİYASININ

"27" iyun

iki min on iki

2012

DİPLOM ALİ TƏHSİL HAQQINDA

DÖVLƏT SƏNƏDİDİR

B № 238018

REKTOR

6733-B


























Döyüs yoldaşların görüşünə
gəlgi, ay Nurlan!
























**Nurlan döyüş yoldaşları ilə**




 *Şəhidlər ölmür, şəhidlər unudulmur!!!*







**Nurlan döyüş yoldaşı şəhid**
**Orxan Zöhrab oğlu**
**İsmayılov ilə**



*Allah şəhidlərimizə rəhmət eləsin!!!* 

*Şəhid Nurlan Həsənovun ata nənəsi Gülayə Həsənovanın dilindən Nurlanın şəhadətinə həsr olunmuş bayatılar (müəllifdən)*



Şuşa dağı dumandı,
Görüşümüz gümandı,
Sənsiz çox darıxmışıq,
Tez qayıt, gəl, amandı!

Gedişin son olubdu,
İzlərin də dolubdu,
Əkib getdiyin güllər,
Həsrətindən solubdu.

Gül-çiçəklər açdı, gəl,
Aləmə nur saçdı, gəl,
Gözdə yaşım qalmadı,
Selləndi hey, daşdı, gəl!

Şuşanın özü Nurlan,
Cığırı, izi Nurlan,
Gec açıldın, tez soldun,
Tərk etdin bizi, Nurlan.

Ulduz-ayım, Nurlanım,
Şirin payım, Nurlanım,
Səni haraylayıram,
Çatmır hayım, Nurlanım!





*Şəhid Nurlan Həsənovun ana nənəsi Surayya Quliyevanın dilindən Nurlana həsr olunmuş bayatılar (müəllifdən)*



Bu dağlar çənsiz olmaz,
Dumansız, çənsiz olmaz,
Qəlbimiz həsrətində,
İnan ki, sənsiz olmaz.

Həsrətindən yanıram,
Yanıb alovlanıram,
Sənsizəm çox zamandı,
Bezirəm, usanıram.

Ay mənim qara balam,
Dərdimə çarə balam,
Bu gedişinlə vurdun
Qəlbimə yara, balam!

Dağlar duman oldu, gəl,
Halım yaman oldu, gəl,
Ömrümün son çağıdı,
Axır zaman oldu, gəl!

Ürəyimsən, canımsan,
Damarımda qanımsan,
Vətənçün şəhid olan,
Qəhrəman Nurlanımsan!



*Şəhid Nurlan Həsənovun dayısı Rüstəm Quliyev (1969-2005) 1992-ci ildə Şuşanın müdafiəsi uğrunda döyüşlərdə iştirak edib. O, gitara ifaçısı idi. Qarabağ həsrəti ilə dünyasını dəyişmişdir. Nurlan həmişə deyərmiş ki, müharibə olsa, mən də dayım kimi döyüşə gedəcəyəm.*





## ŞƏHİD NURLAN NADİR OĞLU HƏSƏNOVUN ƏZİZ XATİRƏSİ DOĞUM GÜNÜNDƏ YAD EDİLDİ



19 may 2022-ci il tarixdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində şəhid Nurlan Nadir oğlu Həsənovun doğum günündə onun əziz xatirəsinə həsr olunan anım mərasimi keçirildi.

Anım mərasimdə Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavinləri Vüsalə Fətəliyeva, Əkbər Hacıyev, Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Elxan Ələkbərov, şəhid ailələri, qazilər, müharibə veteranları, şəhidin yaxınları, döyüş yoldaşları, ictimaiət nümayəndələri, müəllimlər iştirak edirdilər.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla anılıb, Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Anım mərasimində çıxış edənlər şəhidin şərəfli döyüş yolundan, şəhidin tarixi ərazilərimizin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirməsindən, Vətən

müharibəsində göstərdiyi şücaətdən, qorxmazlığından danışıblar. Sonra şəhid Nurlan Həsənova həsr olunmuş videoçarx nümayiş etdirilib.Tədbirin bədii hissəsində vətənpərvərlik ruhunda mahnılar ifa edildi, vətənə, bayrağa, şəhidlərə həsr olunmuş şeir nümunələri səsləndirildi. Şəhidin ailəsi onlara göstərilən diqqət və qayğıya, eləcə də övladlarının xatirəsi uca tutulduğuna görə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

Nurlan Nadir oğlu Həsənov 1991-ci il mayın 19-da Şuşa şəhərində anadan olub. O, ailənin ilk övladı idi. 1-ci Qarabağ müharibəsindən sonra, öz doğma torpaqlarından didərgin düşmüş və məcburi köçkün kimi Bakıda məskunlaşmışdılar.

1997-ci ildə Bakıda Şuşa şəhər 3 nömrəli tam orta məktəbə daxil olub, 2008-ci ildə həmin məktəbi əla qiymətlərlə başa vurmuşdu. 2008-2012-ci illərdə Azərbaycan Texnologiya Universitetinin "İnzibati idarəetmə" ixtisası üzrə təhsil almışdı. Nurlan hər zaman vətənpərvərliyi, mərdliyi, əsl kişi xarakteri ilə çoxlarından fərqlənirdi. Nurlan Həsənov 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olub. Daha sonra müddətli leytenant kimi Gəncədə "N" sayli hərbi hissədə xidmət çəkib və 2014-cü ildə ehtiyyatda olan zabit kimi təxris olunub. Və nəhayət, Nurlan da minlərlə cəsur oğullarımız kimi 2020-





ci il sentyabrın 21-də könüllü olaraq təlimlərə qoşulub, sentyabrın 27-də Ermənistanın işğalı altında olan doğma ərazilərimizin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində iştirak edib.

Füzuli və Cəbrayıl istiqamətində döyüşlərdə fəal iştirak edən Nurlan: "Ana, məndən narahat olmayın, burda hər şey yaxşıdı, Şuşanı almağa gəlmişəm"- deyirdi.

Oktyabrın 1-də Füzuli istiqamətində qəhrəmancasına şəhid olub.

Oktyabrın 2-də Bakı şəhərində, yaşadığı Biləcəri qəbristanlığında torpağa tapşırılıb.

Nurlanın Nurgül adlı qızı və Məhəmməd adlı oğlu yadigar qalıb.

Qəlbi Şuşa həsrətilə döyünən Şəhidimizin indi müqəddəs ruhu Şuşamızın səmalarını dolaşır.

Torpaqlarımızın bütövlüyü uğrunda canından keçən ogullarımızın ruhları qarşısında baş əyirik!

*Şuşa rayon İcra Hakimiyyətinin*
*rəsmi saytından götürülmüşdür*

## VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDİ HƏSƏNOV NURLAN NADİR OĞLUNUN ƏZİZ XATİRƏSİ EHTİRAMLA YAD EDİLDİ



02 oktyabr 2022 - ci il tarixində Şuşa şəhər sakini, tağım komandiri – leytenant Həsənov Nurlan Nadir oğlunun şəhadətə qovuşduğu gün şəhidin adına ehsan süfrəsi verildi, onun əziz xatirəsi ehtiramla yad edildi və ruhuna dualar oxundu. Əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Mərasimdə Şuşa Rayon İcra Hakimiyyəti başçısı Bayram Səfərov, Şuşa Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanova, Milli Məclisin üzvü Mahir Abbaszadə, YAP Şuşa və Binəqədi Rayon təşkilatlarının sədrləri Təvəkkül Əliyev və Vüsar İsmayılov, Sumqayıt Regional Mədəniyyət İdarəsinin Şuşa üzrə nümayəndəsi Bayram Cəfərli, Şuşa rayonu





üzrə Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Elxan Ələkbərov, Binəqədi rayonu üzrə Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Səməndər Mənəfov, Şuşa və Binəqədi Rayon İcra Hakimiyyətlərinin əməkdaşları, rayonun idarə və müəssisə rəhbərləri, ziyalılar, şəhid ailələri, qazilər, məktəb direktorları, ictimaiyyət nümayəndələri iştirak edirdilər. Mərasimdə çıxış edənlər şəhidlərimizin döyüş zamanı göstərdiyi qəhrəmanlıqlardan söz açaraq məhz Nurlan Həsənov kimi qəhrəman oğullarımızın göstərdiyi şücaətin 44 günlük Vətən müharibəsində rəşadətli ordumuzun əldə etdiyi Qələbədə böyük mənəvi rolu olduğunu qeyd etdilər.

İllər ötüb, qərinələr dolaşsa da, şəhidlər heç vaxt unudulmur, həmişə minnətdarlıq duyğuları ilə yada salınır, xatirələrinə dərin ehtiram bəslənilir.

Azadlığı, müstəqilliyi, babalardan miras qalan torpağı uğrunda oğlunu, qızını şəhid verən xalq xoşbəxt xalqdır. Bu mənada Azərbaycan xalqının qürur hissi keçirməyə, başını uca tutmağa tam mənəvi haqqı var.

*Şuşa rayon İcra Hakimiyyətinin*
*rəsmi saytından götürülmüşdür*

# "ZƏFƏRİ NURLANDIRAN NURLAN" KİTABINA SÖZARDI

Qəhrəmanlar başı qarlı, uca, keçilməsi çətin, ancaq şərəfli olan dağın zirvəsinə bənzəyirlər. Bu zirvəyə nəinki çatmaq, heç göz dolusu baxmaq da asan deyil, çətindir. Çünki zirvələr həmişə Günəşə tən olur. Günəşə isə heç Günəşin özü də göz dolusu baxa bilməz. Ancaq düşünmək lazımdır ki, o qəhrəmanlar həyata başlayandan belə zirvə olmayıblar ki. Onları zirvələşdirən yaşadıqları həyat tərzi, etdikləri xeyir əməllər, xeyir işlər, Vətən qarşısında, yurd qarşısında, ailə qarşısında olan borclarını ödəmələri və hətta bu yolda canlarını da sevə-sevə, bir an da olsun düşünmədən fəda etmələridir. Onları uzun ya qısa olmasından asılı olmayaraq, yaşadıqları ömür zirvələşdirib. Zirvələri qədər uzun, böyük və çətin imtahanları olub. Nə olsun ki? Əsas odur, onlar bu imtahanlardan üzüağ çıxaraq nə olursa olsun, dik durmağı, əyilməməyi, zəlzələdən, qasırğadan diksinməməyi bacarıblar. Eynən böyük bir zirvə kimi. Nəticədə, dağları, dərələri, zirvələri yaratdığı kimi bu dünyadakı hər şeyi zərrəsindən nəhənginə qədər xəlq edən qadir Allah sonda lazım bilib onların ömürlərinə Şəhid adı qazandırıb son versə də, onları böyük bir zirvəyə çevirib. Mən əbəs yerə zirvəni misal çəkmədim. Əvvəl yazdığıma bir də qayıdıram. Bildirdiyim kimi, zirvələr Günəşə tən olur. Günəş gündüz qalxır, gecə enir, lakin zirvələr heç





zaman enmirlər. Zirvələr üçün aydınlıq, gündüz, xoş sabahlar həmişə var. Çünki gündüzlər Günəş zirvənin üzünü elə nurlandırır ki, o nur onun üzündən, çöhrəsindən ömür boyu getmir. Qəhrəmanlar da nurlu bir zirvə olduğu kimi, həm də bir günəşdir. Bu zaman zirvə də onların qələbəsi, zəfəridir. Beləliklə, qəhrəmanlar Şəhidliyin Zirvəsinə yüksələrək həm də Günəşə döndülər və zəfərlərini də zirvə edib şəfəq kimi üzlərinə bərq vurdular. Zəfəri nurlandırdılar. O qəhrəmanlardan biri də adı kimi özü də nur parçası olan şəhid qəhrəmanımız Nurlan Nadir oğlu Həsənovdur.

İstərdim ki, sözardında qəhrəmanımızın yoluna işıq tutmaqdan ziyadə bu kitabın yazılma məqsədindən, tarixçəsindən və proseslərindən söhbət açım. Çünki bundan qabaqkı 100 səhifədən çox şəhidimizin həyatı barədə mən də içində olmaqla hər kəs bacardığı qədər söhbət açdı, ürək sözlərini, xatirələrini yazdı. Əvvəlcə, onu deyə bilərəm ki, bu kitab gərgin bir əməyin məhsulu olaraq çap edilmişdir. Ancaq biz bunun fərqindəyik ki, gərgin saatların məhsulu olaraq çap edilmiş bu kitab şəhidimiz Nurlan Həsənova olan borcumuzun zərrəsi belə deyil. Ona və onun timsalında bütün şəhidlərimizə ayrı-ayrılıqda borcumuz var və bilirik ki, bu borc nə olursa olsun ödənilməzdir. Bunun üçün biz də öz növbəmizdə şəhidlərimizin tanınması, xatirələrinin həmişə əziz tutulması yolunda bacardığımız qədər əmək sərf edirik və borcumuzu belə ödəməyə çalışırıq. Lakin bununla kifayətlənmirik və kifayətlənməyəcəyik. Bu yol hələ bitməyib, görüləcək işlər hələ qabaqdadır.

Keçən ilin noyabr ayında sosial şəbəkə vasitəsi ilə şəhidimiz Nurlan Həsənovun anası Həqiqət ananın mənə səsli mesaj göndərdiyinin bildirişini gördüm. Həqiqət ana səsli mesajında mənim şəhidimiz haqqında yazdığım "Zəfəri nurlandıran Nurlan" adlı məqaləmdən bir daha söz açaraq, dəyərli sözləri ilə məqaləmi qiymətləndirdi. Sonra bildirdi ki, o, həmin məqalənin əsasında şəhidimiz haqqında bir kitabın çap edilməsini istəyir və onu da istəyir ki, o kitabı mən yazım. Bu səsli mesaj öz-özlüyündə çox şeydən xəbər verirdi. Bir şəhid anasının kiçik əməyimə böyük qiymət verməsindən əlavə, oğlu haqqında çap ediləcək kitabın müəllifinin mənim olmağımı istəməsi məni qürurlandırdı və mənə çox böyük məsuliyyət verdi. Mən Həqiqət anaya dərin minnətdarlığımı bildirərək istəyinizi başım üstə yerinə yetirəcəyimi söylədim. O vaxtdan fikirləşdim ki, niyə də olmasın? Olmalıdır. Ona görə də, vaxt itirməyib material axtarışına çıxdım. Bu uzun prosesdə mənə Həqiqət ana və ailəsi çox böyük köməkçi oldu. Şəhidimiz haqqında olan tədbirləri, yığıncaqları, eləcə də, onun həyatı barəsində efirə gedən verilişləri mənə sosial şəbəkə vasitəsilə göndərir, nəticədə mən də onun yaxınlarının, dost-tanışlarının, sevdiklərinin fikirlərini məqalə kimi kitabın materialına əlavə edirdim. Həmçinin, şəhidimizlə bağlı müəllimlərinin, valideynlərinin və ailə üzvlərinin yazdıqları məqalələri də göndərən Həqiqət ananın bu böyük köməyi nəticəsində qısa müddət ərzində çoxlu material topladım. Hədəfimiz haradasa 100 səhifə idi, lakin materiallar 100 səhifəni ötürdü. Nəticədə, qərar verdik ki, kitab çapa verilsin. Beləliklə, artıq oxuyub sonuna çatdığınız bu kitab belə zəhmətlərin nəticəsində çap edilmişdir.





Əgər bu kitab sayəsində şəhidimizi daha yaxından tanıyıb onun həyat yolu ilə daha yaxından tanış ola bilmisinizsə, özümü hədəfimə az da olsa çatmış hesab edirəm. Şəhidimizlə bağlı kitabın mənim müəllifliyimlə çap edilməsi bir daha bildirim ki, mənə izah olunmaz dərəcədə qürur və məsuliyyət verir. Əməyimizin dəyəri isə siz oxucuların əlindədir. Bilirəm ki, kitabı son dərəcə diqqətlə oxuyub şəhidimizin həyat yolunu bir film kimi beyninizdə canlandıracaq, sonda kitaba lazımi qiyməti, dəyəri verəcəksiniz.

Son olaraq kitab üzərində əməyi keçən hər kəsə və dəyərli vaxtını sərf edib bu kitabı oxuyan əziz və dəyərli oxucularımıza dərin minnətdarlığımı bildirirəm. Şəhidlər vurulanda yox, unudulanda ölürlər. Şəhidlər unudulmayıb, unudulmur, unudulmayacaq! Şəhidlərimizin içində şəhid Nurlan Həsənov da həmişə yaşayacaq, yaşadılacaq!

Şəhidlər ölməz, vətən bölünməz!

**SEVİNDİK NƏSİBOĞLU.**
***21.02.2023.***

# MÜNDƏRİCAT

Vətən müharibəsi şəhidi, Leytenant Nurlan Həsənovun qısa bioqrafiyası......6
Zəfəri nurlandıran Nurlan......9
Şuşanı ruhuyla fəth edən Nurlan......27
Ana, salamat qal!......30
Şuşaya mən özüm üçrəngli bayrağımızı sancacağam......40
Nurgülün atasına məktubu......44
Biz qardaşımla səni hər zaman gözləyəcəyik, qəhrəman atam!......46
Mənim qardaşım mərd, cəsur və vətənpərvər idi......47
Əminəm ki, nurlan şuşanı ruhuyla fəth etdi......50
Nurlan şəhadətindən sonra da bizi bir yerə yığmağı bacardı......53
Nurlan bu vətənin, bu xalqın oğludur......57
Nurlan bizimlədir......60
Öz əsgərlərini qoruya bildi, özü isə şəhadətə yüksəldi ....62
"Ən böyük arzum övladlarımın Şuşanı görməsidir"......65
Ot kökü üstə bitər......69
Nurlan hərbçi olması ilə fəxr edirdi......70
Sevinirik ki, Nurlanın arzusu çin oldu......71
Şuşaya tankın üzərində girib bayrağımızı şəhərə özüm sancacağam......73
Mən anamı şuşaya aparacağam......75
Nurlan heç nədən qorxmurdu......77
Uşaqlıq arzusuna çatmaq üçün canından belə keçməyə





hazır idi......78
Nurlan və nurlan kimi vətən oğullarının qəhrəmanlıqlarına bütün dünya heyran qaldı......80
Adı nur olan nurlan ......85
Şuşalı şəhid Nurlan......90
Şəhid anasının dilindən......97
Ruhunuz şad olsun, Ey şəhidlər!......99
Şəhid Nurlan......101
Şuşa səmasında dolaşan igid......107
"Şuşanı almağa gedirəm, ana"......102
Şəhid Nurlan Nadir oğlu Həsənovun əziz xatirəsi doğum günündə yad edildi......129
Vətən Müharibəsi şəhidi Həsənov Nurlan Nadir oğlunun əziz xatirəsi ehtiramla yad edildi......132
"Zəfəri nurlandıran Nurlan" kitabına sözardı......134

**SEVİNDİK NƏSİBOĞLU**

**ZƏFƏRİ NURLANDIRAN NURLAN**

**Mətbəənin direktoru:** Şəddat Cəfərov,
iqtisad elmləri namizədi,
Azərbaycan və Rusiya Yazıçılar
və Jurnalistlər Birliklərinin üzvü

**Korrektor:** Əməl Kərimova, Tərlan Əliyeva
**Texniki redaktor:** Tərlan Əliyeva
**Kompüterdə yığım:** Vüsalə Həsənova
**Dizayner:** Mülayim Vəliyeva

Yığılmağa verilmiş: 05.01.2023
Çapa imzalanmış: 30.03.2023
Kağız formatı: 60X84 1/16
Fiziki çap vərəqi: 8,5
Sifariş: 15
Tiraj: 500

Kitab "Bakı Mətbəəsi" ASC-də hazır diapozitivlərdən ofset üsulu ilə çap edilmişdir.
Ünvan: A.Məhərrəmov küçəsi 4.
E-mail: 3_metbee@mail.ru
Tel.: 431 40 58



Sevindik Nəsiboğlu (Əliyev Sevindik Nəsib oğlu) 26 iyul 2008-ci ildə İmişli şəhərində anadan olmuşdur. O, əslən Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndindən olmaqla Xocavənd rayonunun Muğanlı kəndində daimi qeydiyyatdadır. Hazırda 9-cu sinif şagirdi, dərs əlaçısıdır.

Onun şeirləri hələ 2015-ci ildən müxtəlif qəzet və jurnallarda dərc olunmuş, milli radio və televiziyanın, eləcə də digər televiziya kanallarının efirində yayımlanan verilişlərdə dəfələrlə səsləndirilmişdir. Sevindik ictimai fəallığına görə "Həqiqət" Tarixi Araşdırmalar İctimai Birliyinin "Gənc istedad"(2017), "Afia.az" İnformasiya Agentliyinin "Ən yaxşı yazar"və "İlin şagirdi", həmçinin "Azərbaycan XXI əsrə istedadlarla" layihəsi çərçivəsində "Gənc istedad" diplomlarına layiq görülmüşdür. 2018-ci ildə onun "Dünyamsan Azərbaycan" və "Hərdən uçmaq istəyirəm" adlı şeir, 2020-ci ildə "Ulu Naxçıvanım" adlı nəsr, "Könüllərə yol gəzirəm" adlı şeir, 2021-ci ildə şəhidlərimizə və işğaldan azad olunmuş torpaqlarımıza həsr olunmuş "Möhtəşəm Zəfərin nişanəsi" adlı bədii-publisistik kitabları nəşr edilmiş, redaksiya heyətinin üzvü və ən gənc ictimai müxbiri olduğu "Kredo" qəzetində çoxsaylı məqalələri, araşdırmaları və şeirləri mütəmadi dərc olunmuş, "Afia.az", "XeberTime.az", "Versus.az" və digər xəbər saytları vasitəsi ilə yayımlanmışdır. Vətən müharibəsi başlanan günün ilk anlarından Sevindik qələmini mənfur düşmənin sinəsinə sancılan süngüyə çevirərək Ali Baş Komandanımızın rəhbərliyi ilə Müzəffər ordumuz tərəfindən azad edilmiş torpaqlarımıza, qəhrəman əsgər və zabitlərimizə şeirlər və publisistik yazılar həsr etmişdir. Onun günbəgün yaxınlaşdığımız müqəddəs Zəfərimizə həsr etdiyi "Zəfərin nişanəsi" adlı şeiri Mədəniyyət Nazirliyi tərəfindən keçirilən ədəbiyyat müsabiqəsinin qalibi olmaqla Nazirliyin fəxri fərmanına layiq görülmüş, bu mövzuda qələmə alınmış "Dirçələn Xarıbülbül" adlı kitabın materialları isə nəşr olunması üçün Mədəniyyət Nazirliyinin müvafiq komissiyasına təqdim edilmişdir. Sevindik Nəsiboğlu 2021-ci ilin iyun ayından Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.